YENİ MÜSAVAT
www.musavat.com
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 mart 2016-cı il Çərşənbə № 49 (6370) Qiyməti 60 qəpik

## Xəbər

**Novruzda 20 siyasi məhbusun azad ediləcəyi gözlənilir**

yazısı səh.3-də

## Gündəm

**Prezidentdən daha bir inqilabi fərman**



Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarının ixracı ilə məşğul olan iş adamlarına dövlət büdcəsinin vəsaiti hesabına əlavə ixrac təşviqi vəsaiti ödəniləcək

yazısı səh.8-də

*Aslan İsmayılov:*
**"Normal seçki olsa, Azər Tağıyev heç vəkillərin 5 faizinin səsini ala bilməz"**

yazısı səh.10-da

**Avropa Birliyinin nümayəndəsi QHT rəhbərləri ilə qapalı görüşdü**

yazısı səh.3-də

**Keçmiş MTN-çilər türmədə necə yaşayır?**

yazısı səh.6-da

**Mərkəzi Bank bankları birləşdirə bilmədi - səbəb...**

yazısı səh.15-də

**OPEK hasilatı azaltdı-ekspertlər "qiymət artımı müvəqqətidir" deyir**

yazısı səh.9-da

**Şair Mahir Mehdi barədə üç aylıq həbs qərarı**

yazısı səh.10-da

**Elmar Hüseynovun qətlindən 11 il keçdi**

yazısı səh.4-də

**"Donuz qripi" bazarlarda donuz əti satışını...artırıb**

yazısı səh.12-də

**Sabirabadda qardaş bacısının başını kəsdi**

yazısı səh.3-də

**Əfv Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib**

yazısı səh.2-də

### Maliyyə boslarının 21 dekabr yanlışı- ölkə fəlakətdən necə dönüb...

# AZƏRBAYCANA QARŞI XAİN PLAN - ŞOK MƏLUMATLAR

Yanvar ayında rayonlarda başlayan sosial etirazlar kənar güclərin müdaxiləsindən son anda çıxarılıb; bütün ölkəboyu vətəndaş-hakimiyyət qarşıdurması yaratmaq ssenarisi prezidentin çevik addımları sayəsində pozulub; "martda Azərbaycanda sabitliyi pozmaq" ssenarisinin qarşısı alınmasaydı...




yazısı səh.5-də

## Bakı və Tiflis arasında mühüm anlaşma - gözlənilən oldu

Azərbaycan Gürcüstanın İran və Rusiyadan qaz asılılığına düşməsinə imkan vermədi; işğalçı ölkənin tranzit ölkə olmaq arzusu da gözündə qaldı

yazısı səh.9-da



*Hadı Rəcəbli:*
**"Hamı kabab yeyir, amma qoyun adını çəkəndə..."**

yazısı səh.7-də



**İlhamə Quliyevanın mirası haqda şok xəbər**

yazısı səh.5-də


Rasim Əliyev

**Jurnalisti döyüb öldürən "yaxşı eləmişəm" dedi**

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 49 (6370) 2 mart 2016



## Mehriban Əliyevaya "İlin adamı" mükafatı təqdim olunub

**Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya ANS Şirkətlər Qrupunun və Milli Qəhrəman Çingiz Mustafayev adına Fondun "2015-ci ilin adamı" mükafatının təqdim edilməsi mərasimi keçirilib.**

Fonddan APA-ya verilən məlumata görə, mərasimdə ANS Şirkətlər Qrupunun vitse-prezidenti Mirşahin Ağayev və ANS Şirkətlər Qrupunun prezidenti Vahid Mustafayev çıxış ediblər.

Qeyd olunub ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "2015-ci ilin adamı" mükafatı ilə "Bakı-2015" birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsindəki müstəsna roluna, Azərbaycanın müsbət imicinin dünyada tanınması istiqamətində göstərdiyi genişmiqyaslı fəaliyyətə, milli mədəniyyətimizin təbliği istiqamətində gördüyü işlərə, ölkəmizdə multikulturalizm mühitinin inkişaf etdirilməsinə verdiyi töhfəyə və davamlı xeyriyyəçilik fəaliyyətinə görə təltif edilib.

Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyətindən bəhs edən, ANS Şirkətlər Qrupu tərəfindən hazırlanmış videoçarx nümayiş olunub.

Daha sonra V. Mustafayev "2015-ci ilin adamı" mükafatının diplomunu və pul mükafatını Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təqdim edib.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə çıxış edib.

Qeyd edək ki, təqdim edilən pul mükafatı Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan və daun sindromlu şəxslərin sosial-mədəni reabilitasiyasına xidmət edən Bakıdakı Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin hesabına köçürüləcək.

## İtkin neftçilərin ailə üzvləri axtarışların sürətlənməsini istəyirlər

**2015-ci ilin dekabrında Xəzərin "Günəşli" yatağındakı 10 saylı platformada itkin düşən neftçilərin ailələri martın 1-də Fövqəladə Hallar Nazirliyinin qarşısına toplaşıblar. Belə ki, neftçilərin ailə üzvləri itkin düşənlərin axtarışlarının intensiv aparılmamasından narazıdırlar və bu haqda nazir K.Heydərovu məlumatlandırmaq istəyiblər. Ailə üzvləri fövqəladə hallar nazirinin müavini Etibar Mirzəyevlə görüşüblər. "Bizə itkin neftçilərin axtarışlarının davam etdiyi və edəcəyi deyildi", - ailə üzvlərindən biri Esmira Əhmədova bildirib.("Turan").**

Onun sözlərinə görə, bu yaxınlarda FHN məsullarından birinin itkin neftçilərin axtarışlarının dayandırılması haqda açıqlaması bu ailələrin narahatlığına səbəb olub. E.Əhmədovanın dediyinə görə, bu gün nazir müavini E.Mirzəyev axtarışların davam edəcəyini vəd edib.

Xatırladaq ki, 2015-ci il dekabrın 4-də "Günəşli" yatağındakı 10 saylı platformada baş verən yanğın nəticəsində 34 nəfər xilas edilib. 7 nəfərin meyiti dərhal tapılıb, daha sonra 6 cəsəd aşkar edilib. Bugünlərdə isə daha bir meyit Xəzərin Neftçala rayonu sahillərində aşkar edilib. Hazırda 16 nəfərin axtarışı davam edir.

İtkin neftçilərin ailə üzvləri FHN-də görüşə qədər dəfələrlə Dövlət Neft Şirkətinin rəhbərliyi ilə görüşüblər, axtarışların intensiv aparılmamasına etirazlarını bildiriblər.

### Başsağlığı

**Hikmət və Nazim Sabiroğlu qardaşları Əliməmməd Nuriyevə qardaşı**
**Vahab Nuriyevin**
**vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**
***
**Deputat Vahid Əhmədov İsgəndər Həmidova qardaşı**
**Sərdar Həmidovun**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur


# Yol polisi Bakıda bir gün ərzində 800 elektron protokol yazdı

**Dövlət Yol Polisinin istifadəsində olan avtomobillərə quraşdırılmış i-patrul sistemi tam işə düşüb. Virtualaz.org saytı fins-az-a istinadən xəbər verir ki, bu haqda Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi Vaqif Əsədov məlumat verib.**

İ-patrul sistemi Bakı və Gəncədə tətbiq olunur. Sistemə quraşdırılmış 6 kamera 500 metr məsafəni görmək, qayda pozuntularını qeydə almaq iqtidarındadır.

Ancaq sistem 100 metr məsafədəki avtomobilin dövlət nömrə nişanını qeydə ala bildiyindən həmin radiusdakı inzibati xətalara uyğun elektron protokol tərtib ediləcək.

V.Əsədov bildirib ki, i-patrul sistemi 360 dərəcədə hərəkətdə olan və dayanmış bütün nəqliyyat vasitələrini qeydə ala biləcək:

"Kameralar yanları, irəlini və arxanı həm düzünə, həm də çarpazvari şəkildə çəkə bilir. Artıq gün ərzində i-patrul sistemi tərəfindən sürücülərə 700-800 inzibati protokol tərtib olunub" - deyə DYP sözçüsü bildirib.

Mütəxəssislərin fikrincə, bundan sonra cərimə edilən avtomobillərin sayı arta bilər.





## Azərbaycan martın 27-də yay vaxtına keçəcək

**Martın 27-də Azərbaycan ərazisində yay vaxtına keçiləcək. APA-nın məlumatına görə, həmin gün saat 04:00-da saatların əqrəbləri 1 saat irəli çəkiləcək, bununla da ölkədə qış vaxtı başa çatacaq.**

Qeyd edək ki, qış və yay vaxtlarının tətbiqi barədəNazirlər Kabineti 1997-ci ildə qərar verib.

Qərara əsasən, hər il oktyabrın son bazar günündə ölkə ərazisində qış, martın son bazar günündə isə yay vaxtına keçilir.

## Bakıda bankdan küllü miqdarda pul oğurlanıb

**Bakıda bankdan küllü miqdarda pul oğurlanıb. APA-nın məlumatına görə, "Ekspressbank"ın Bakıxanov qəsəbəsində yerləşən filialında ödəmə terminalı sındırılaraq içərisindən 13 min manat pul oğurlanıb.**

Hadisə ilə bağlı Sabunçu Rayon Polis İdarəsinə məlumat verilib.

Hazırda faktla bağlı əməliyyat-axtarış tədbirləri davam etdirilir.



## Bayram Səfərov: "Cəhənnəmə getsinlər"

**Qəbələdən olan 25 sakinin Ağdama gələrək, Ermənistanın işğalı altındakı bölgəyə keçmək cəhdi cəmiyyət tərəfindən birmənalı qarşılanmır. Dağlıq Qarabağın Azərbaycanlı İcmasının sədri Bayram Səfərov modern.az-a açıqlamasında mövzu barədə danışıb. O bildirib ki, əllərində ağ bayraqla işğal altındakı əraziyə keçib erməni olmaq istəyənlərlə nə danışmaq, nə görüşmək istəyir.**

"Keçib erməni olmaq istəyir?

Cəhənnəmə getsin, gora da dalınca. Ağ bayraq da götürüb gedir, cəhənnəmə getsin. Elə adamlarla danışmaq və onları görmək istəmirəm".

Qeyd edək ki, 25 nəfər Qəbələ sakini əllərində ağ bayraqla işğal altındakı Ağdam rayonuna keçərkən polis onları mühasirəyə alıb.

Bildirilir ki, həmin 25 nəfər Qəbələdə onlara qarşı edilən haqsızlıqlardan dolayı bu addımı atıb.

## Azərbaycan valyuta ehtiyatlarının 24%-ni itirib

**2015-ci ildə Azərbaycanın valyuta ehtiyatları 24,1% azalıb. Fins.az-ın məlumatına görə, bu ilin əvvəlinə ölkə 38 milyard 590,8 milyon dollarlıq valyuta ehtiyatına malik olub. Bunun 33 milyard 574,1 milyon dolları Dövlət Neft Fondunun (ARDNF), 5 milyard 16,7 milyon dolları isə Mərkəzi Bankın (ARMB) payına düşüb.**

Ötən ilin əvvəlində isə valyuta ehtiyatlarının məbləği 50 milyard 862,4 milyon dollar təşkil edib. Bunun isə 37 milyard 104,1 milyon dolları ARDNF-də, 13 milyard 758,3 milyon dolları ARMB-də toplanıb. Başqa sözlə, Azərbaycan 2015-ci ildə valyuta ehtiyatlarının 12 milyard 271,6 milyon dollarını itirib.

## İŞİD-ə hücum başlandı

**Şiə döyüşçüləri və ABŞ hava qüvvələrinin dəstəklədiyi İraq hökumət qüvvələri martın 1-də Bağdadın şimalında İslam Dövləti (İŞİD) silahlı qruplaşmasına qarşı hücuma başlayıb. İraq rəsmiləri bildirir ki, əməliyyatın məqsədi İŞİD-in təchizat xəttini kəsmək, silahlı qruplaşmanın nəzarətində olan Mosul şəhəri ətrafına hakimiyyətin nəzarətini gücləndirməkdir.**

İraqın ABŞ-ın dəstəyi ilə Mosulu gerialma əməliyyatı bu ilin sonuna gözlənir. Mosul 2014-cü ildən İŞİD-in nəzarətindədir.

ABŞ-ın müdafiə naziri Ashton Karter fevralın 29-da deyib ki, Birləşmiş Ştatlar, İraq qüvvələrinin Mosul əməliyyatına Ramadinin alınmasında olduğundan daha artıq dəstək göstərəcək ("Azadlıq" radiosu).

## Əfv Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib.**

Komissiyanın üzvü Mehdi Mehdiyevin APA-ya verdiyi məlumata görə, iclasda əfvlə bağlı müraciətlərə baxılıb.

Onun sözlərinə görə, komissiyaya əfvlə bağlı xeyli sayda müraciət daxil olub və araşdırılır: "Komissiyanın bir neçə iclasının keçirilməsi nəzərdə tutulur".

M. Mehdiyev Novruz bayramı ərəfəsində prezident İlham Əliyev tərəfindən əfv sərəncamının imzalanacağına ümid etdiklərini də bildirib.

## Bəzi təşkilatlarda maaşlar artırıldı

**Azərbaycan prezidenti İlham Əliyev dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında sərəncam verib.**

Mədəniyyət və Turizm Nazirliyinin Milli Kulinariya Mərkəzi, İcra hakimiyyəti orqanlarının nəzdində mərkəzləşdirilmiş mühasibatlıq, Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri, Kənd Təsərrüfatı Nazirliyinin Azərbaycan Aqrar Elm Mərkəzi, Maliyyə Nazirliyiyanında Maliyyə Elm-Tədris Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzi, Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi, Müəllif Hüquqları Agentliyinin Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyinin Dövlət Film Fondu və onun Naxçıvan filialı, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, Səhiyyə Nazirliyinin Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin nəzdində dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün "Məzun evi" Sosial Müəssisəsində çalışan rəhbər və digər işçilərin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) aylıq vəzifə maaşları 2016-cı il martın 1-dən orta hesabla 10 faiz artırılıb.

Nazirlər Kabinetinə bu təşkilatlarda çalışan rəhbər və digər işçilərin vəzifə maaşlarının yeni məbləğlərini müəyyən etmək tapşırılıb.

## Bakıda sağ ikən qəbir yeri almaq qadağan olundu

**Bakı şəhərində yerləşən qəbiristanlıqlarda sağ ikən qəbir yeri almaq qadağan olunub. Bunu Bakı şəhəri Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin baş mühəndisi Sabir Həsənov deyib.**

"Bundan öncə insanlar sağ ikən özlərinə qəbir yeri ala bilirdilər. Amma hazırda bu, qadağan olunub. Kimsə öz yaxınlarının məzarı yanında boş yeri saxlamaq istəyirsə, onların xahişi nəzərə alınır. Amma sağ ola-ola qəbir almaq istəyənlərin müraciətlərinə baxılmır", - deyə S.Həsənov vurğulayıb.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən



**Novruz bayramı yaxınlaşdıqca, ənənəvi olaraq əvvəlki bayramlar kimi, əfv sərəncamının verilməsi məsələsi yenidən gündəmə gəlib. Bu dəfə əvvəlkilərə nisbətən əfvdən gözləntilər daha çoxdur. Bunun da bir çox səbəbləri var.**

# Novruz əfvi yaxınlaşır

## 20 siyasi məhbusun azad ediləcəyi gözlənilir; prezident ABŞ-a siyasi məhbuslarsız gedəcək?

Son günlərdə Azərbaycanla Qərb arasındakı münasibətlərdə yaxınlaşmanın müşahidə olunması, AŞ PA sədri Pedro Aqramuntun Bakıya səfəri çərçivəsində vətəndaş cəmiyyətinin nümayəndələri, media təmsilçiləri və siyasi məhbusların yaxınları ilə görüşməsi, eləcə də prezident İlham Əliyevin martın sonu, aprelin əvvəllərində Vaşinqtonda keçiriləcək Nüvə Təhlükəsizliyi Sammiti ilə bağlı ABŞ-a gözlənilən səfəri növbəti əfvlə bağlı ümidlərin artmasına səbəb olan əsas amillərdir.

Ölkə iqtidarının konqresmen Smitin Azərbaycan əleyhinə hazırladığı qanun layihəsinin müzakirə edilməməsi üçün siyasi məhbusları azadlığa buraxmağı çıxış yolu gördüyü də yayılan xəbərlər sırasındadır. AŞ PA prezidentinin həbsdə olan REAL sədri İlqar Məmmədovla görüşü əfv istiqamətində verilən anons kimi qiymətləndirilir. Ekspertlər güman edirlər ki, Azərbaycan prezidenti ABŞ-a siyasi məhbus problemi ilə getməyəcək. Çünki indiki şəraitdə ölkə başçısının Amerikaya səfərinin önəmini iqtidar yaxşı anlayır.

Əfv ətrafında bir sıra iddialar da ortaya atılıb. Azərbaycan hakimiyyətinin Qərbin diqqətində olan 20 siyasi məhbusu Novruzda azadlığa buraxacağı bildirilir. Artıq onların siyahılarının hazırlandığı da iddia olunur. Hüquq müdafiə təşkilatları isə siyasi məhbuslarla bağlı siyahılarını artıq Əfv Komissiyasına göndəriblər. Komissiyanın yeni formalaşdırılan heyətinin ilk iclasında yeni siyahı hazırlanıb, prezidentə təqdim olunacaq.

**107 nəfərlik məhbus siyahısını Əfv Komissiyasına təqdim edən Siyasi Məhbusların Monitorinq Mərkəzinin rəhbəri Elşən Həsənov Novruzda əfv sərəncamının verilməsinə ümidlərinin yüksək olduğunu söylədi:** "Daim ümid etmişik ki, əfv siyahısında hamımızı sevindirəcək məhbusların adına rast gələcəyik. Biz siyahılarımızı Əfv Komissiyasına göndərmişik. İndiki siyahıya Nardaran hadisələri ilə bağlı həbs edilənlərin adlarını da əlavə etmişik. Hazırda əfv veriləcəyinə daha çox ümid edirik. Çünki dünyada siyasi məhbus məsələsinə görə çox tənqidlərlə üzləşirik. Siyasi məhbus sayına görə dünya ölkələrinin çoxunu geridə qoymuşuq. Bu, dövlətçiliyimizin imicinə böyük zərbədir. Belə bir hal Azərbaycan vətəndaşı olaraq, şəxsən mənim xoşuma gəlmir. Açığı, Qərb tərəfdən dövlətimizə qarşı olan sanksiyaların əleyhinəyəm. Amma məmurlarla bağlı sanksiyaları dəstəkləyirəm".

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu Novruzdan əfv gözlədiklərini bildirdi:** "Sevindirici haldır ki, AŞ PA sədri və Avropa İttifaqından Bakıya gələnlər dialoq tərəfdarıdılar. Bu, başlıca müsbət amildir. Ümid edirik ki, əfv olacaq. Bizdən asılı olan hər şeyi etmişik. Siyahılarımızı Əfv Komissiyasına göndərmişik. Digər işlərlə də məşğul oluruq. Məsələn, İntiqam Əliyev hazırda ağır xəstədir. Övladları bizə müraciət etmişdilər. Səidə Qocamanlı aidiyyəti quruma müraciət etdi ki, onu müayinə etsinlər, ehtiyac olarsa, müalicə təşkil etsinlər. Onu müayinə edəcəklər. Bizə söz veriblər. Siyasi məhbusları daim gündəmdə saxlayırıq. Hamısına diqqət yetiririk".

**İşçi Qrupunun digər üzvü Səadət Bənəniyarlı isə Novruz əfvi ilə bağlı qərarsızdır. O, hesab edir ki, əfv olmaya da bilər:** "Yeni il əfvindən uzun zaman keçməyib. Açığı, qalan 20 gün ərzində əfv siyahılarının hazırlanacağı, sərəncamın veriləcəyinə inanmıram. Əfv sərəncamı veriləcək, amma may ayı daha real görünür. Mart əfvi olmaya bilər. Çox istərdik ki, belə bir qərar verilsin. Bunlar xırda işlər deyil. Əfv Komissiyasının tərkibinə yeni üzvlər təyin olunub. Bu komissiyadan gözləntilərimiz çoxdur. Prezident bu istiqamətdə kifayət qədər müsbət addımlar atır. Bildiyiniz kimi, məhkəmə qərarı ilə Leyla və Arif Yunuslar azad olundular. Belə qərarların digərlərinə də şamil olunacağını düşünürəm. Ölkə başçısının ABŞ səfəri ilə siyasi məhbusları əlaqələndirmək doğru deyil".



**Elşən Həsənov:** "Qərbdən dövlətimizə qarşı sanksiyaların əleyhinəyəm"



**Novella Cəfəroğlu:** "Bizə söz veriblər..."



**Səadət Bənəniyarlı:** "Mart əfvi olmaya da bilər"

❑ **Cavanşir ABBASLI**

# Avropa Birliyinin nümayəndəsi QHT rəhbərləri ilə qapalı görüşdü

## Federika Mogerini Bakıdan Ermənistan paytaxtına gedib



**Federika Mogerini**

**Bakıda səfərdə olan Avropa Birliyinin xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Mogerini bir qrup hüquq müdafiəçisi və QHT rəhbərləri ilə görüşüb. Bu barədə İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) rəhbəri Vüqar Bayramov axar.az-a danışıb. Ekspert 2 saat davam edən və ictimaiyyət üçün açıq olmayan görüşlə bağlı bəzi mühüm məqamları bölüşüb: "Müzakirələrdə neftin dünya bazar qiyməti aşağı düşəndən sonra regionda və eləcə də Azərbaycanda mövcud iqtisadi vəziyyət və bunun genişmiqyaslı islahatlar üçün yaratdığı imkanlara diqqət yetirildi. Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlük məsələsi əsas müzakirə mövzularından biri oldu. Ümumi qənaətim ondan ibarətdir ki, Avropa Birliyi Azərbaycanda islahatlara daha yaxından dəstək vermək niyyətindədir. Güman edirəm ki, ali nümayəndənin Azərbaycana səfəri ölkəmizlə köhnə qitə arasında münasibətlərin yenidən inkişafına töhfə verə bilər. Görüşdə həmçinin Novella Cəfərova, Mirvari Qəhrəmanlı, Şəhla İsmayıl və Əvəz Həsənov da iştirak edirdilər".**

Qeyd edək ki, fevralın 29-da Avropa Birliyinin Xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerini Cənub Qaz Dəhlizi layihəsinin Məşvərət Şurasının II iclasında iştirak etmək üçün Azərbaycana səfər edib. Prezident İlham Əliyevlə görüşən xanım Mogerini xarici işlər naziri Elmar Məmmədyarovla birgə mətbuat konfransı da keçirib. Elmar Məmmədyarov jurnalistlərə bildirib ki, görüş zamanı ötən ilin mayında Riqada Aİ-yə təqdim olunmuş strateji əməkdaşlıq sazişi layihəsi ətrafında müzakirələr aparılıb. Federika Mogerini isə deyib ki, görüş zamanı ikitərəfli sazişin imzalanması üçün məsləhətləşmələrdən başqa, hazırkı iqtisadi vəziyyət, neft qiymətlərinin aşağı düşməsi məsələləri də müzakirə olunub (BBC).

Federika Mogerini martın 1-də Bakıdan Ermənistan paytaxtına gedib.

# Sabirabadda qardaş bacısının başını kəsdi

**Sabirabad rayonunda qətl hadisəsi baş verib. APA-nın Mil-Muğan bürosunun xəbərinə görə, hadisə martın 1-də rayonun Qalağayın kəndində qeydə alınıb. Kənd sakini, 1990-cı il təvəllüdlü İbişov Famil Əlirza oğlu bacısı, 1988-ci il təvəllüdlü İbişova Hüsniyyə Əlirza qızının boğazını kəsərək qətlə yetirib. Famil İbişov saxlanılıb. İlkin ehtimala görə, hadisə qısqanclıq zəminində baş verib. Meyit müayinə olunmaq üçün Sabirabad rayon morquna aparılıb.**

Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.

# Jurnalisti döyüb öldürən "yaxşı eləmişəm" dedi

## Rasim Əliyevin qətlə yetirilməsi ilə bağlı məhkəmədə yenə dava düşdü



**Martın 1-də Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist Rasim Əliyevin qətlə yetirilməsi ilə bağlı həbs edilən Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayevin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Prosesə hakim Eldar İsmayılov sədrlik edib.**



Elşən İsmayılov

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, təqsirləndirilən şəxslərin vəkilləri məhkəməyə gəlmədiyi üçün fasilə elan olunub. Fasilə zamanı isə təqsirləndirilən şəxslərlə mərhum jurnalistin anası Teyfurə Əliyeva arasında insident yaşandı. Belə ki, təqsirləndirilən şəxslərin danışıb-gülməsi Teyfurə Əliyevanın narazılığına səbəb oldu. "Bütün Azərbaycan sizi söyür, siz isə gülürsünüz", - deyə etiraz edən T.Əliyevaya təqsirləndirilənlər cavab qaytarıblar. Bundan sonra təqsirləndirilən Kənan Mədətovun anası ilə Rasim Əliyevin nişanlısı arasında dava baş verdi. Tərəflər arasında mübahisə artdığından hər iki tərəf zaldan çıxarıldı. Rasim Əliyevin ölümündə təqsirləndirilən, futbolçu Cavid Hüseynovun bibisi oğlu Elşən İsmayılov "yaxşı eləmişəm, söyməyəydi", - deyib.

Xatırladaq ki, ann.tv-nin əməkdaşı Rasim Əliyev facebookda futbolçu Cavid Hüseynovu tənqid edən statusuna görə 8 avqust, 2015-ci ildə Bayıl qəsəbəsi ərazisində bir qrup şəxs tərəfindən döyülüb. Jurnalist çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib və ertəsi gün orada vəfat edib. Bununla bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayev barəsində həbs-qətimkan tədbiri seçilib.

O cümlədən "Qəbələ" klubunun sabiq kapitanı Cavid Hüseynov da R.Əliyevin döyülərək qətlə yetirlməsi ilə əlaqədar açılan cinayət işi üzrə şübhəli şəxs qismində saxlanılıb. C.Hüseynovun bibisi oğlu E.İsmayılovun təşkilatçılığı ilə ağır cinayətin hazırlanmasını bilərək bu barədə xəbər verməməsi, cinayətin törədilməsindən sonra isə qabaqcadan vəd etmədən onun gizlədilməsinə yönələn hərəkətlərə yol verməsində əsaslı şübhələr olduğundan ona Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

**Qeyd edək ki, jurnalist Rasim Əliyevin döyülərək öldürülməsinə səbəb olmuş futbolçu, "Qəbələ" klubunun kapitanı Cavid Hüseynovun barəsindəki cinayət işi digər təqsirləndirilən şəxslərin işindən ayrılıb.**

# Elmar Hüseynovun qətlindən 11 il keçdi

## Yaxın bir ildə jurnalistin qətli açıla bilərmi?

**Martın 2-də “Monitor” jurnalının baş redaktoru Elmar Hüseynovun qətlindən 11 il ötür. 11 il öncə ölkə rəsmiləri qatillərin tapılacağına söz versə də, hələ də günahkarlar cəzalarına çatmayıb. O zaman cinayət işinin istintaqı üçün ABŞ və Türkiyənin xüsusi xidmət orqanlarından mütəxəssislər dəvət olundu. Az sonra istintaq qətli Tahir Xubanovla Teymuraz Əliyevin törətdiyini və onların Gürcüstanda gizləndiklərini açıqladı. Amma həmin şəxslər hələ də həbs olunmayıb.**



2014-cü ildə E.Hüseynovun atası Sabir Hüseynov da dünyasını dəyişdi. Mərhum jurnalistin ölümündən qısa müddət sonra onun həyat yoldaşı Ruşaniyyə Hüseynova oğlu Aslanla birgə Norveçə mühacirət etdi. Hazırda E.Hüseynovun ailəsi adına ölkədə bacısı və qardaşı qalıb.

**E.Hüseynovun atası Sabir Hüseynov son müsahibələrində oğlunun qatili tapılmayınca dünyasını dəyişmək istəmədiyini deyirdi. Onun sözlərinə görə, qatillərin kim olduğunu hamı bilsə də, heç kim açıqlamır:** “Hamısını bilirəm, kimdir, nədir. Amma əmələ gəlmir. Hamı bilir, deyən yoxdur. Eynulla gedib Gürcüstanda həmin adamları tapdı. Onu da tutdular dama saldılar, 4 il 3 ay yatdı. Dəqiq deyən yoxdur, kimlərdir. Ancaq heç kim də tutulmayıb. Bilirik kimdir, nəçidir. Ancaq durub neyləyəcəm bundan sonra? Siz məndən də yaxşı bilirsiniz. Niyə tuturlar axı? Özlərini tutası deyillər ki. Öz-özünü tutan adam varmı? Nə isə, əvvəl-axır açılacaq, vaxt lazımdır”.

Ötən il işin istintaqını aparan artıq ləğv edilən Milli Təhlükəsizlik Nazirliyində (MTN) baş verən inqilabi olaylar oldu. Adı tez-tez jurnalistlərə qarşı zorakılıq hadisələrində hallandırılan MTN polkovniki Akif Çovdarovun işdən çıxarılması, ardınca isə həbsi E.Hüseynov cinayətini yenidən gündəmə gətirdi.

Heç kimə sirr deyil ki, 2005-ci ildə “Monitor” jurnalının baş redaktoru Elmar Hüseynovun qətlə yetirilməsi zamanı A.Çovdarovun adı hallandırılırdı. Bu versiyanı səsləndirənlərdən biri də virtualaz.org saytının baş redaktoru Eynulla Fətullayev idi.

Və bu gəlişmədən sonra istər-istəməz E.Hüseynovun qətlinin açılmasına ümidlər artdı. Çünki qətlin sifarişçisi kimi adı hallandırılan A.Çovdarovun cinayət əməllərində E.Hüseynovun qətlinin də yer alacağı ehtimallar sırasındadır.

**“Qanun” nəşriyyatının direktoru Şahbaz Xuduoğlu hesab edir ki, ləğv edilən MTN-də aparılan islahatlar bu məsələyə mütləq öz təsirini göstərəcək. Amma müsahibimiz bunun tez bir zamanda olacağını ehtimal etmir:** “Elmar Hüseynov məsələsi ikinci mərhələdə olacaq. Ümumiyyətlə isə hər hansı islahat, yenilik ümid yaradır ki, Elmar Hüseynov və digər siyasi qətllərin üstü açıla bilər. Bura Elmar Hüseynovun qətli də daxildir, Rafiq Tağının qətli də. Çünki bu işlərin hamısı MTN-in kurasiyasına daxil olub”.

**Müsahibimizin sözlərinə görə, əgər zərərçəkən tərəf kimi tanınmış Elmar Hüseynovun ailəsi (həyat yoldaşı, qardaşı, bacısı) yenidən müraciət etsə, bu, işə müsbət təsir göstərəcək. Ş.Xuduoğlu E.Hüseynovun hazırda Norveçin paytaxtı Osloda yaşayan həyat yoldaşı Ruşaniyyə Hüseynova ilə hər hansı kontaktları olmadığını bildirdi. E.Hüseynovun ölümündən sonra yaratdıqları Elmar Hüseynov Fondunun isə R.Hüseynovanın mühacirətindən sonra fəaliyyətini dayandırdığını xatırlatdı:** “Amma bütün hallarda Ruşaniyyə Hüseynova zərərçəkən kimi özü yenidən müraciət edə bilər".

**E.Hüseynovun bacısı Elmira Hüseynova isə daha öncə “Yeni Müsavat”a açıqlamasında bildirmişdi ki, qardaşının qətlinin açılacağına inamı yoxdur:** “Bura Avropa, Amerika olsaydı, bəlkə də ümidim olardı. Öz adımdan bu 10 ildə heç vaxt ümidim də olmayıb”.

❑ **Sevinc TELMANQIZI**



# Pedro Aqramunt prezidentlə görüşdü

**Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramuntu qəbul edib. AzNews.az xəbər verir ki, Avropa Şurası Parlament Assambleyasının prezidenti seçilməsi münasibətilə Pedro Aqramuntu təbrik edən dövlət başçısı onun yeni vəzifəyə seçildikdən az müddət sonra Azərbaycana səfər etməsini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirib.**

Təşkilatla tamhüquqlu əməkdaşlığımızın 15 illik bir tarixi əhatə etdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurası Parlament Assambleyasının üzvü kimi müsbət inkişaf proseslərinə öz töhfəsini verməkdə davam etdiyini bildirib. Dövlət başçısı tərəfdaşlığımızın bundan sonra yeni inkişaf səviyyəsinə doğru irəliləyəcəyinə də əminliyini ifadə edib.

Bakıya səfərindən məmnunluğunu ifadə edən Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramunt bu vəzifəyə seçildikdən sonra ilk xarici səfərlərindən birini Azərbaycana etdiyini vurğulayaraq ölkəmizin onun üçün xüsusi əhəmiyyət daşıdığını bildirib. Hazırda bütün dünyanın, xüsusilə Avropanın müxtəlif çağırışlarla üzləşdiyini deyən Pedro Aqramunt belə bir dövrdə qarşılıqlı maraq doğuran məsələlərin müzakirə olunmasının önəmini qeyd edib və Azərbaycanın bəzi məsələlərin həlli baxımından mühüm ölkə olduğunu vurğulayıb.

Görüşdə Azərbaycanla Avropa Şurası arasında əlaqələrin qarşılıqlı inam və hörmət prinsipləri əsasında daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qərb-Azərbaycan yaxınlaşmasına müxalifətdən razı, Rusiyadan narazı münasibət

**“Biz çox istərdik ki, Azərbaycanın Qərb dairələri ilə, Avropa, ABŞ və İsraillə münasibətləri hər zaman isti olsun. Çünki bu istilik nəticə etibarilə ölkənin demokratikləşməsinə və ölkədə yeni mühitin yaranmasına səbəb olacaq”.**

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bu fikirləri Qərb-Azərbaycan münasibətlərində son zamanlar müşahidə olunan istiləşməni “Yeni Müsavat”a şərh edərkən söylədi. Onun sözlərinə görə, Avropa və Amerika ilə müttəfiq olub onun dəyərlərini paylaşmamaq mümkün deyil: “Müttəfiq olacaqsansa, isti münasibətlər quracaqsansa, dəyərlərini də paylaşmağa məhkumsan. O məhkumluq da nəticə etibarilə Azərbaycanda demokraikləşməni sürətləndirəcək, siyasi institutların mövqeyini gücləndirəcək, cəmiyyətdə azad fikirliliyə şərait yaradacaq və s. Ona görə də mən bu münasibətləri alqışlayıram və həmişə beynəlxalq təşkilatlardan da istəmişik ki, kənarlaşdırma siyasətindən daha çox, əməkdaşlıq siyasəti həyata keçirilsin və Azərbaycan hakimiyyəti ilə daha sıx münasibətlərdə, təmaslarda olsunlar”.



**İqbal Ağazadə:** “Mən bu münasibətləri alqışlayıram”



**Gülağa Aslanlı:** “Müsavat Partiyası Avrointeqrasiya xəttini vacib hesab edir”



**Natiq Miri:** “Bəli, Rusiyanın növbəti hədəfi Azərbaycan ola bilər, ancaq...”

**İ.Ağazadə güman etmir ki, Qərb-Azərbaycan hakimiyyəti münasibətlərinin yaxşılaşması fonunda müxalifətin önəmi azala bilər:** “Demokratik cəmiyyətdə müxalifətin önəmi heç zaman azalmaz. Demokratik cəmiyyət quruculuğuna, demokratikləşməyə doğru dəyərləri paylaşıb gedəcəksənsə, demokrarikləşmənin ən böyük elementi olan siyasi institutların da rolu artacaq. Qərb üçün demokratikləşmə şərtdirsə, bu, demokratikləşmənin hansısa elementini kənarda qoymayacaq, məcburən siyasi institutlar da bu demokratikləşmənin içində yer alacaq”.

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı da Qərb-Azərbaycan yaxınlaşmasına, “buzların əriməsinə” müsbət münasibət bəsləyir:** “Müsavat Partiyası Avrointeqrasiya xəttini vacib hesab edir. Son zamanlar hakimiyyətin İran və Rusiya ilə daha sıx münasibətlərdə olması və Suriyanı dəstək mövqelərinin fonunda iki gün əvvəl keçirilən tədbir daha yaxşı görünürdü. Biz Müsavat Partiyası olaraq Azərbaycan hökumətinin xarici siyasətində Avroatlantik məkana inteqrasiya məsələsinin həmişə tərəfdarı olmuşuq. Amma hesab edirik ki, Suriyanın müdafiəsi istiqamətində fikirlər səsləndirməklə Azərbaycanın beynəlxalq səviyyədə imicinə zərbə vurulmamalıdır”.

Ölkə müxalifətinin mövqeyindən bəlli olur ki, demokratik düşərgə mövcud münasibətləri qısqanclıqla qarşılamır. Lakin rəsmi Bakı ilə Qərb arasında “soyuq savaş”ın olmasından məmnunluq duyan şimal qonşumuzu təbii ki, bu vəziyyət razı sala bilməz. Elə ekspertimiz də bu fikirdədir.

**Politoloq Natiq Miri qeyd etdi ki, bu gün dünyanı narahat edən məsələlərdən biri də Putin hakimiyyəti dönəmində Rusiyanın proqnozlaşdırıla bilməyən ölkələrdən biri olmasıdır:** “Suriya hadisələrindən sonra Rusiyanın daha hansı ölkəyə təcavüz edəcəyi sualı dünyanı ciddi şəkildə maraqlandırır. Fikir verirsinizsə, Azərbaycanla Qərb dünyası, hətta ABŞ-la münasibətləri artıq isti və strateji məcraya daşınmaq üzrədir. Cənub Qaz Dəhlizi ilə bağlı Məşvərət Məclisinin ikinci toplantısının Bakıda keçirilməsi və buna Qərb tərəfindən çox həssas yanaşılması, nüfuzlu siyasət adamlarının, nazirlərin Azərbaycana gəlməsi də göstərdi ki, bəli, Azərbaycan yenidən strateji olaraq Qərb dünyasının diqqət mərkəzindədir. Bu, təbii ki, həm də təhlükəsizlik məsələsi ilə bilavasitə bağlıdır. Azərbaycan prezidenti də Cənub Qaz Dəhlizinin reallaşmasını Azərbaycanın təhlükəsizliyinin bir parçası olduğunu vurğuladı. Bu, həqiqətən də belədir. Çünki bu layihəyə Qərb dünyasının çox güclü ölkələri qoşulub və geostrateji maraqlar çərçivəsində Azərbaycanın təhlükəsizliyi məsələsi də müzakirə predmetidir”.

**N.Miri belə bir məqamda şimal təhlükəsini unutmamağı da vacib sayır:** “O baxımdan, bəli, Rusiyanın növbəti hədəfi Azərbaycan ola bilər. Ancaq Rusiyanın indiki, zəifləmiş durumunda bu ölkənin imkanlarını həddən artıq şişirtmək də Rusiyanın informasiya savaşının xeyrinə çalışmaq demək olardı. Bu gün hətta Ukrayna Müdafiə Nazirliyi Rusiyaya meydan oxuyur və savaş olacağı halda Rusiyanın 20 minə qədər əsgərinin öldürülə biləcəyi ehtimalından danışır. Ona görə də biz Azərbaycan ictimaiyyətini Rusiya ilə qorxutmaqdan çox, bu tipli təcavüzə qarşı duruş gətirmək ruhunda hazırlamalıyıq. Bundan ötrü mütləq mənada Azərbaycanın Qərbin təhlükəsizlik sistemində yer alması zəruridir. Bəli, bu təhlükəsizlik sistemində yer almağımızın müqabilində Qərbin bir çox şərtləri var. Burada Azərbaycanda yeni model iqtisadiyyatın tətbiq olunmasından tutmuş, siyasi islahatlar və siyasi azadlıqlara qədər bir sıra tələblər var, Azərbaycan bilavasitə özünün dövlət və milli maraqlarına uyğun olan bu tələbləri yerinə yetirməlidir”.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 49 (6370) 2 mart 2016

# Maliyyə boslarının 21 dekabr yanlışı - ölkə fəlakətdən necə dönüb...



# Azərbaycana qarşı xain plan - şok məlumatlar

## Yanvar ayında rayonlarda başlayan sosial etirazlar kənar güclərin müdaxiləsindən son anda çıxarılıb; bütün ölkəboyu vətəndaş-hakimiyyət qarşıdurması yaratmaq ssenarisi prezidentin çevik addımları sayəsində pozulub; "martda Azərbaycanda sabitliyi pozmaq" ssenarisinin qarşısı alınmasaydı....

**Dekabrın 21-da baş vermiş ikinci devalvasiyadan sonra Azərbaycanda hakimiyyətin gözləmədiyi bir proses baş verdi. Regionlarda müxalifətə heç bir bağlılığı olmayan və siyasi proseslərə qarışmayan bir təbəqə ayağa qalxdı. Daha çox kasıb təbəqənin nümayəndələri yerli icra hakimiyyətlərindən və hüquq-mühafizə orqanlarından tələb edirdilər ki, onların üzləşdiyi maddi çətinliyi hökumət aradan qaldırsın.**

Bu, iqtidar üçün gözlənilməz situasiya idi. Xatırladaq ki, 2012-ci ilin elə bu günlərində Qubada, 2013-cü ilin isə yanvar ayında İsmayıllıda əhalinin etiraz aksiyaları olmuşdu. Lakin həmin aksiyalar sırf mental məsələlərlə bağlı baş vermişdi. Qubada icra başçısı iclasda yerli əhali haqda həqarət söyləmişdi. Onun bu çıxışı sosial şəbəkələrdə və saytlarda yayıldıqdan sonra Quba əhalisi başçının villasına od vurmuş, rayonda ara qarışmış, polislə, Daxili Qoşun əsgərləri ilə toqquşmalar baş vermişdi.

İsmayıllı hadisələri də söyüşdən və həqarətdən alovlanmışdı. Onun da ortaya çıxmasında mental amillər ciddi rol oynamışdı. Rayonun icra başçısının qardaşı oğlu - o vaxtkı əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərovun oğlu bir qrup yerli sakinlə mübahisə zəminində İsmayıllı camaatı haqda nalayiq sözlər işlətmişdi. Bu, Ələkbərovlara da, hökumətə də, hətta İsmayıllı sakinlərinə də baha başa gəldi. Ələkbərovlar hakimiyyətdəki mövqelərini birdəfəlik itirdilər, bu olaylarda iştirakı olan və olmayan xeyli rayon sakini isə həbs edildi.

İsmayıllı hadisələrinə siyasi müxalifəti də qatdılar - Müsavat başqanının müavini Tofiq Yaqublu ilə REAL Hərəkatının həmsədri İlqar Məmmədov İsmayıllıdakı iğtişaşlarda iştirakda günahlandırılaraq həbs edildilər. Hər iki siyasətçi hələ də məhbəsdədir. Əslində nə T.Yaqublunun, nə də İ.Məmmədovun bu olaylarda zərrə qədər rolu olmayıb. Sadəcə, o vaxt hakimiyyət yanlış olaraq İsmayıllıda baş verənləri siyasi müxalifətin ayağına yazmağa, hadisəyə siyasi don geydirməyə çalışdı. 3 ildir iqtidar həmin libası əynindən heç cür çıxarıb ata bilmir...

***

Bu ilin yanvarında rayonlarda keçirilən aksiyalar isə sosial-iqtisadi problemlərdən doğmuşdu. Əhali ucuz un, çörək və iş tələb edirdi. Xalq devalvasiyadan sonra üzləşdiyi ağır şəraitə etiraz edərək küçələrə çıxmışdı.

Mərkəzi hakimiyyət bu etirazlardan ciddi şəkildə təşviş keçirdi. Bu təşviş hakimiyyətin situasiyaya çox radikal və çevik müdaxilə etməsinə səbəb oldu. Nəticədə həmin etirazlar yatırıldı. Spontan xarakterli o aksiyaların yatırılmasında gücdən istifadə etməklə paralel, həm də narazı əhalinin etirazlarını aradan qaldıran bəzi addımlar da atıldı: unun, çörəyin qiyməti ucuzlaşdırıldı. Bəzi rayonlarda imkansız ailələrə un, ərzaq paylanıldı, prezident tərəfindən pensiya və əməkhaqlarının artırılması ilə bağlı sərəncamlar imzalandı, azad sahibkarlıq və kənd təsərrüfatının inkişafı üçün fərmanlar verildi. Bu və digər addımlar cəmiyyətdə artmaqda olan emosional əhvalı xeyli yumşaltdı.

Heç şübhəsiz ki, bəzi iqtidar deputatlarının həmin dövrdə müxalif libasına bürünüb hakimiyyətin bəzi qollarını, nümayəndələrini sərt şəkildə tənqid eləməyi, müxalifət liderlərinə fürsət və meydan tanımamağı da bu prosesdən hakimiyyətin itkisiz çıxmasına kömək oldu.

Müxalifətin yanvarın ortalarında cərəyan edən sözügedən prosesə qoşulmaması da hakimiyyətə nəfəs almağa, vəziyyəti nəzarəti altına keçirməyə imkan yaratdı. Əslində demokratik düşərgənin ay yarım öncəki davranışı təqdir olunmalıdır. Müxalifət sanki nəsə bilirmiş kimi davranaraq bu etirazlara yön vermədi, yerli təşkilatlarını proseslərdən kənar tutdu, gözləmə mövqeyinə keçdi. Müxalifət həmin vaxt hadisələri qızışdırmaq xəttindən çox, hökumətə antiböhran təklifləri verdi. Bu, həm də dəstək idi. Təkcə hökumətə yox, həm də dövlətə və xalqa. Çünki müxalifət liderləri də yaxşı anlayırlar ki, Azərbaycan qarışsa, ölkədə sabitlik pozulsa, onların da perspektivi sual altına düşə, proseslərə müdaxilə imkanları məhdudlaşa bilər.

Düzdür, 1-2 gün iqtidar düşərgəsi aksiyaların müxalifət tərəfindən təşkil edildiyi tezisini ortaya atıb ictimai rəyi buna inandırmağa həvəsləndi. Lakin tez də bu təbliğat dayandırıldı. İllərdir iqtidar mediası, ideoloqları müxalifətin zəiflədiyini, siyasi proseslərə təsir imkanlarının qalmadığını, sosial bazasının tükəndiyini iddia edir. Bəs olmayan müxalifət ölkənin az qala yarısını bir neçə gündə necə ayağa qaldıra bilərdi? Ona görə hakimiyyət bu dəfə müxalifətə ağır ittihamlarla yüklənmədi. Səbəb aydındır: bu addımı atsaydı, avtomatik müxalifətin güc mərkəzi olduğunu etiraf etmiş olacaqdı. Həm də yuxarıda yazdığımız kimi - müxalifət faktiki olaraq bu etirazlarda yoxuydu. Bunu hətta bəzi partiya sədrləri bəyanat verərək bildirdilər.

***

"Yeni Müsavat"a verilən informasiyaya görə, lokal aksiyalar davamlı olsaydı, qığılcım digər rayonlara da sıçrayacaqdı. İqtidara etiraz edən bölgələrin sayı çoxalsaydı, prosesə müdaxilə və nəzarət eləmək imkanı xeyli dərəcədə hakimiyyətin əlindən çıxa bilərdi. Aksiyaların Bakıya və digər iri şəhərlərə də sıçrayacağı da istisna deyildi.

Redaksiyamıza daxil olan məlumata görə, xalqın sosial problemlərə görə etiraz aksiyalarının böyüdülməsi, bütün ölkəni ağuşuna alması planı olub. Yerli camaatın un, çörək, iş tələbi sonradan Azərbaycanı qarışdırmaq üçün bir mexanizm halına gətiriləcəkmiş. Əlbəttə ki, kənar güclərin müdaxiləsi ilə! *(Əslində bunun belə olduğunu ilk gündən AZDP-nin sədri Sülhəddin Əkbər açıq şəkildə mediaya söyləmişdi-red.)* Təsadüfi deyil ki, bu lokal etiraz aksiyaları tez bir zamanda Qərb mətbuatında "şişdi", hətta prezident İlham Əliyevə Davos Forumunda sual şəkilində verildi də...

Dünya praktikasında bu cür lokal aksiyaların sonradan hətta inqilabı proseslərlə nəticələndiyini sübuta yetirən çoxsaylı faktlar mövcuddur *(Tunis inqilabının göyərti satanın piştaxtasının dağıdılması ilə başladığını yada salmaq kifayətdir-red.)* Azərbaycanda da bu praktikanın təkrarlanacağı təhlükəsi kifayət qədər real olub. Azərbaycanı istəməyən ayrı-ayrı kənar güclər bu cür situasiyadan yararlanıb vəziyyətə nəzarəti ələ keçirib Azərbaycanda xaos yaratmağı planlaşdırıblarmış.

Məlumatlı mənbəmiz həmçinin bildirir ki, bu proses yanvar-fevral ayı boyunca kiçik fasilələrlə davam edib, martda daha təhlükəli mərhələyə qədəm qoyacaqmış. Ssenariyə görə, xalqın hökumətdən sosial məsələlərə görə narazılığı kənar güclərin müdaxiləsi ilə Azərbaycanı qarışdırmaq planının işə salınmasına gətirib çıxaracaqmış. Bununla da hakimiyyət-vətəndaş qarşıdurması başladıb sonradan ona yön vermək, nəzarətdə saxlamaq, üsyan həddinə çatdırmaq planları olub.

Hökumətin maliyyə boslarının 21 dekabr yanlışı sonda Azərbaycanı az qala böyük bir fəlakətlə üz-üzə qoyacaqdı. Bu vəziyyətdən istifadə edən güclər isə xalqla hakimiyyəti toqquşdurub ölkəmizi geriyədönməz xaosa soxacaqmış.

Siyasi hakimiyyət zamanında müdaxilə etməsəydi, xalqla dil tapmasaydı, kim bilir nələr olacaqdı. Xatırladaq ki, Azərbaycanda siyasi proseslər küçə və meydanlara keçəndə Qarabağ cəbhəsində də gərginlik artır. 1990-cı illərin əvvəllərində ölkədə siyasi gərginlik, tez-tez hakimiyyət dəyişikliyi paralel olaraq Azərbaycanın torpaq itkiləri ilə müşayiət olunub. Siyasi xaos heç bir ölkəyə uğur gətirmədiyi kimi Azərbaycana da yaxşı nəsə verməyib. Bu dəfə də verməyəcəkdi.

Bir məqam da var ki, onu vurğulamaq yerinə düşərdi. Azərbaycan prezidenti İlham Əliyevin 21 dekabrdan sonrakı davranışları da ölkəmizi ciddi xaosdan xeyli sığortaladı. Prezidentin bəzi davranışları, fərman və sərəncamları, həmçinin ictimaiyyətə açıqlanmayan bir sıra addımları Azərbaycanı çox böyük fəlakətlərdən xilas etdi. Martın 1-də prezident İ.Əliyevin imzaladığı bir sıra fərmanlar bu mövqeyimizi təsdiqləyir. Amma təhlükə tam aradan qalxmayıb. Hökumət xalqın haqlı tələb və narazılığını azaltmaq üçün hələ çox çalışmalıdır.

***

**ADP sədri Sərdar Cəlaloğlu da hesab edir ki, sosial etirazların bütün ölkəni bürüməsi halında bu vəziyyət xaosa və çox təhlükəli proseslərə yol aça bilərdi. Ola bilsin ki, belə bir planı olan xarici və daxili qüvvələr də olub:** "Xalq xaotik şəkildə ayağa qalxanda onun qarşısını heç kəs ala bilməz və ölkə çox böyük sarsıntılarla üz-üzə qalar. Azərbaycanda minimum əmək haqqı bu gün 80 dollardır. Minimum əmək haqqının səviyyəsi ilə ölkələrdə sabitliyin arasında bir bərabərlik işarəsi qoymaq olar. O ölkələrdəki minimum əmək haqqı yüksəkdir, orada sabitlik var. O ölkələrdəki minimum əmək haqqı çox aşağıdır o ölkələrdə qeyri-stabillik, sosial-siyasi kataklizmlər riski ilə üz-üzədirlər. Azərbaycan artıq risklə üz-üzə ölkələr sırasına aid edilə bilər. Belə vəziyyətdə olan ölkələrdə xarici qüvvələrin də öz maraqlarını həyata keçirməsi üçün hər an əlverişli şərait yarana bilər. Azərbaycan artıq risk zonasındadır. Ölkədə yaranmış durumdan xarici güclər qarışıqlıq yaratmaq və təşəbbüsü ələ almaq istəyinə düşə bilərlər. Bir çox qüvvələr iqtisadi, sosial böhranın ağır mərhələyə keçəcəyini gözləyirlər. Eyni zamanda öz maraqlarını həyata keçirmək üçün ölkədə qarışıqlıqda maraqlı olan, qarışıqlıq yaratmaq, gərginliyi bütün ölkəyə yaymaq, yaranmış gərginlikdən yararlanmaq istəyən hakimiyyətdaxili və hakimiyyətxarici qüvvələr də ola bilər. Bütün bunların baş verməməsi, təhlükədən yan keçmək üçün ölkədə təcili iqtisadi, sosial, siyasi islahatlara ciddi şəkildə başlanmalıdır. Görüntü xarakterli addımları yığışdırmaq lazımdır".

❑ **Azər AYXAN, Etibar SEYİDAĞA**

# İlhamə Quliyevanın mirası haqda şok xəbər

## Xalq artistinin bank hesabları da donduruldu

**Bu günlərdə dünyasını dəyişən xalq artisti İlhamə Quliyevanın bütün mirası nə oğulluğuna, nə də yaxınlarına deyil, bütövlükdə dövlətə qalacaq. Bu barədə xalq artistinin dayısı oğlu, müğənni Əli Mirəliyev "Yeni Müsavat"a açıqlamasında bildirib:**

"Əsəbləşirdi, hər dəfə vəsiyyət barəsində bir söz deyirdi. Canı ağrıyırdı. Hirslənirdi Orxanın əlindən, ona "bezdelnik" deyirdi. Sonra deyirdi "yox, oğlumdur". Vəsiyyətnamə rəsmi olaraq yoxdur, heç nə yazmayıb. Yazsaydı biz bilərdik, bir şey çıxardı üzə. Sənədləri, filan hamısı məndə idi. Sözdür də gah deyirdi ki, "evi orduya verəcəm", gah deyirdi, "yox, nəvəm var, ona verəcəm". Bir az müəmmalı oldu... Mirasının hamısı dövlətə qalacaq".

Əli Mirəliyev İlhamə Quliyevanın banklardakı bütün pul hesablarının dondurulduğunu da açıqlayıb:

"Çünki özü yoxdur. Rəsmi uşağı da yoxdur ki, ona qalsın sərvəti. Sadəcə, xalasının nəvəsi Orxanı saxlayıb, böyüdüb, evləndirib. Amma rəsmi oğulluğa götürməyib. Uşağı götürüb saxlayanda öz familiyasına keçirir, sənədləşdirirlər. Biz belə görümüşük. Onun adı Quliyeva İlhamə Məzahir qızı, o da Nadirov Orxan Əhmədağa oğludur. Heç bir hüquqi sənəd yoxdur təsdiqləsin ki, Orxan onun oğulluğudur. Elə bir vəsiyyətnamə də yoxdur ki, "mən mirasımı, ölümümdən sonra Orxana verirəm". Biz bunun çevrəsində olan adamlarıq, lakin bu barədə heç bir rəsmi sənəd bilmirik. Biz bilirik ki, xəstəliyi ilə əlaqədar onun beynindəki durumu pozulmuşdu. Gah qışqırır, gah ağlayırdı, gah da "uff, ayaqlarım, hər yerim ağrıyır" deyirdi. Əziyyət çəkirdi bu adam. Amma efirə çıxanda mərdi-mərdanə çıxıb oxuyur, deyib-gülürdü. Çox mübariz insan idi... "

Qeyd edək ki, xalq artistinin dünyasını dəyişdiyi gün tanınmış aparıcı Elgiz Əkbər mətbuata açıqlama verərək bildirmişdi ki, İlhamə Quliyeva təxminən 2 ay əvvəl özünə yaxın bildiyi kəsləri evinə dəvət edərək bütün mirasını orduya verəcəyini vəsiyyət edib. Lakin müğənninin oğulluğu Orxan Nadirov bu açıqlamanın "Elgizin fantaziyası" olduğunu bildirmişdi. Eyni zamanda vəkili də aparıcının açıqlamasını təkzib etmişdi.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 49 (6370) 2 mart 2016



# Keçmiş MTN-çilər türmədə necə yaşayır?

## Əvəz Zeynallı: "Onlar pul müqabilində ürəkləri istəyən şəraiti yarada bilərlər"

## Tural Abbaslı: ""MTN işi"nə görə həbsə düşənlər çox güman ki, içəridə özlərinə "yeni həyat" qurublar"

**Hazırda Azərbaycan həbsxanalarında xeyli sayda keçmiş MTN əməkdaşları var. Onlar 17 oktyabr 2015-ci ildə başlanan "MTN işi" ilə bağlı həbs ediliblər və barələrində müxtəlif maddələrlə cinayət işi açılıb.**

Həmin şəxslər arasında ləğv edilmiş MTN-də yüksək vəzifələr tutan generallar belə var. İndi hər kəsi həbs edilən keçmiş MTN-çilərin törətdikləri cinayətlərlə yanaşı, onların həbsxana həyatı da maraqlandırır. Çünki uzun illər nazirlikdə müxtəlif vəzifələr tutan bu şəxslər xeyli sayda insanı sorğu-sual edib, haqlı və ya haqsız şəkildə onların həbsxana yolunu tutmasına səbəb olublar. Onlar bahalı kostyumlar, parıltılı ayaqqabılar geyinib, mühafizəçilərlə bahalı maşınlarda gəzib, lüks həyat tərzi keçirib, dəbdəbəli kabinetlərdə oturublar. İndi kiçik həbsxana kameralarında onlar üçün hansı şərait yaradılır? Onların həbsxanada xüsusi imtiyazlar əldə etməsi mümkündürmü? Düzdür, keçmiş MTN-çilərin vəkilləri müvəkkillərinin digər dustaqlardan fərqli şəraitdə saxlanmadığını, onlara xüsusi münasibət göstərilmədiyini deyir. Lakin məhkumluq həyatı yaşayanlar həbsxana şəraitinin və "şərtlərinin" fərqli olduğunu deyir.

Mövzu ilə bağlı məhbusluq həyatı yaşamış şəxslərin fikirlərini təqdim etməmişdən əvvəl onu qeyd edək ki, hüquq-mühafizə orqanlarının əməkdaşları həbs olunarkən onlar digər dustaqlardan məsafəli şəkildə və ayrı kameralarda saxlanılır. Həbsxana termini ilə həbs olunan bu şəxslər "paqon" adlanır. "Paqon"lar təhlükəsizlik baxımından digər dustaqlardan ayrı saxlanılır. Çünki dustaqlardan hansısa birinin həbsində həmin "paqon" işçisi iştirak edə və ya aralarında keçmişdən qalan konflikt ola bilər.

**Məhkumluq həyatı yaşamış "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının fikrincə, həbsdə olan keçmiş MTN-çilər maddi imkanlardan istifadə edərək özləri üçün həbsxanada mümkün ola biləcək yaxşı şərait yarada bilərlər:** "Əvvəlcə onu qeyd edim ki, keçmiş MTN-çilər "paqon" işçiləri olduğundan normal dustaqlardan ayrı saxlanılır. Qanunda da bu nəzərdə tutulur. "Paqon" işçiləri əsasən 9 saylı cəzaçəkmə müəssisəsində saxlanılırlar.

İmtiyazlara gəlincə isə, qanunda nəzərdə tutulmur ki, dustağın əvvəl işlədiyi yerə görə, məsələn, MTN-də çalışdığına görə ona hansısa bir xüsusi diqqət və ya güzəştlər edilsin. İndiki Azərbaycan reallığında həbsxanalarda pul əsas rol oynayır. Kimin pulu varsa, onun imtiyazları var".

**Pulu olan şəxslərin həbsxanada hansı imtiyazlar əldə edə biləcəyinə gəlincə isə, Ə.Zeynallı məhbusluq dönəmində gördüklərinə əsasən bunları deyir:** "1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılanlar təbii ki, maddi imkanlarından yararlanaraq özlərinə müəyyən şərait yarada bilərlər. Çox güman ki, yaradıblar da. İndi keçmiş MTN-çilərin saxlanıldığı kameralardakı şərait digər dustaqların qaldığı kameraların şəraitindən tamamilə fərqlənir. Məsələn, indi qışdır və normal dustağın saxlanıldığı kameraya qızdırıcı soba qoymaq üçün 800-1000 manat pul tələb olunur. Əksər dustaqların kamerasında bu sobalar yoxdur, amma yəqin ki, keçmiş MTN əməkdaşlarının kameralarında həmin cihazlardan var. Mobil telefonlardan istifadə edirlər. Bunun da qiyməti 5-7 min manat arasında dəyişir. Həbsxana elə bir yerdir ki, orada pulla özünə şərait yaratmaq imkanları olur. İndi həbsdə olan keçmiş MTN-çilərin əksəriyyəti pul xərcləyib, özlərinə normal şərait yaradıblar".

**"AG blok"un təsisçisi, keçmiş vicdan məhbusu Tural Abbaslı yaşadığı məhbusluq dönəmini xatırlayaraq həbsxanalarda vəzifəli və imkanlı şəxslərin əldə edə biləcəkləri imtiyazlardan və onlara göstərilən xüsusi münasibətlər haqda fikirlərini bildirdi.**

**Həbs olunan keçmiş MTN-çilərə xüsusi münasibətin olduğunu əminliklə söyləyən T.Abbaslı qeyd edir ki, onlar maddi imkanlarından yararlanaraq özlərinə "yeni həyat" qura bilirlər:** "Həbsxanalarda vəzifəli şəxslərə və güc strukturlarının nümayəndələrinə münasibətlər fərqli ola bilir.

İndi keçmiş MTN-çilərin saxlanıldığı Bakı İstintaq Təcridxanasında kameraların quruluşu 2, 4 və 6 nəfərlikdir. Adətən eyni cinayət işi üzrə tutulanlar bir kamerada saxlanılmır. "MTN işi"nə görə həbs olunanlar 2 nəfərlik kameralarda ya tək saxlanılır, ya da onların kamera yoldaşı "elitar cinayətlər"ə görə həbs edilənlər olur. Məsələn, dələduzluğa, rüşvətə görə və s. MTN-çilər hazırda narkoman, qətl törədən şəxslərlə eyni kamerada saxlanılmırlar. Bakı İstintaq Təcridxanasında qeyri-rəsmi belə bir bölgü də var ki, həbs olunanlar ilk dəfə həbs olunan, bir neçə dəfə həbs olunanlar kimi də ayrılaraq kameralara yerləşdirilir. Və təbii ki, "MTN işi"nə görə həbs olunanlara xüsusi münasibət var. Dustaqların onlara çıxışı minimumdur və ya yoxdur. Türmə rəhbərliyinin də münasibəti fərqli olur. Onlara bir çox güzəştlər edilir. "MTN işi"nə görə həbs olunanların azadlıqdan məhrum edilmədən başqa hansısa bir əziyyət çəkəcəyinə inanmıram".

**Onun sözlərinə görə, dustaqların özünə şərait yarada bilən digər dustaq haqda nəsə danışması və ya kimisə şikayət etməsi türmə qanunlarına görə doğru deyil:** "Nəzərə alsaq ki, bu şəxslərin çöldə külli miqdarda vəsaitləri var. Nə qədər inkar edilsə də həmin pullar həbsdə olanların içəridə "yeni həyat" qurmasına xərclənir. Kimlərləsə görüşmək üçün, onlara gələn sovqatları almaq üçün və s. Biz də həbsdə olarkən müəyyən şəxslər bu cür imkanlardan yararlanırdı. Amma onu da qeyd edək ki, həbsxanalarda belə bir yazılmamış qanun var ki, kimsə türmədə özünə şərait yarada bilibsə, başqasının bu haqda danışması, dilə gətirməsi, şikayətçi olması qəbul edilmir".

❑ **İlkin MURADOV**

# "Antiböhran koalisiyası 3-cü qüvvə missiyasını yerinə yetirəcək"

## Əli Əliyev: "Radikal, barışmaz, aqressiv siyasətin nəticəsi göz önündədir"

**KXCP, AXP, ADP, VİP, AzDP, ALDP, BAP, Azadlıq Partiyası, GAP, AG blok və digər müxalifyönlü təşkilatların, QHT-lərin təmsil olunduğu müxalifətin antiböhran koalisiyasında demokratik düşərgənin ənənəvi əsas qüvvələri sayılan Müsavat Partiyası və AXCP-nin iştirak etməməsinin bu koalisiyanın taleyinə necə təsir edəcəyi maraq doğurur.**

Bəzi siyasi ekspertlər hesab edir ki, Müsavatsız və AXCP-siz birlik ortaya ciddi nəticələr qoya bilməz. Bəziləri isə bu fikirdədir ki, adıçəkilən iki partiyanın olmamağı böhran koalisiyasının daha dayanıqlı və uzun ömürlü olmasına zəmin yarada bilər. Çünki Müsavatla AXCP uzun müddət bir yerdə ola bilmirlər və birlikləri qısamüddətli olur.

Bəs antiböhran koalisiyası müxalifət düşərgəsində yeni və böyük formatda birliyin yaranması sayıla bilərmi? Müsavatsız və AXCP-siz müxalifət birliyinin perspektivi necə olacaq?



**Antiböhran koalisiyasında təmsil olunan Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev bildirdi ki, onun fikrincə, antiböhran koalisiyası 3-cü qüvvə missiyasını yerinə yetirməlidir:** "Siyasi proseslərin və cəmiyyətin belə qüvvəyə, sabitləşdirici faktora zəruri ehtiyacı var. Uzun illərdir Azərbaycan siyasi qüvvələrinin düşmənçilik zəminində mübarizə aparan iki qütbü mövcuddur. Bunlardan biri YAP və onun ətrafında formalaşmış satellitlər, digəri isə 90-cı illərdə formalaşmış qüvvələrin xaotik qarışığı. Radikal, barışmaz, aqressiv siyasətin nəticəsi göz önündədir. Siyasi düzəndə sonsuz maliyyə, iqtisadi, administrativ imkanlara malik və bacarıqsız, qocalmış kommunist vərdişli iqtidar, o biri tərəfdə isə bütün resurslardan məhrum edilmiş, əsas hissəsi 30 ilə yaxın müddətdə siyasi meydanı zəbt etmiş müxalifət təşkilatları. Belə ətalətli dəngə ilk növbədə hakimiyyət qüvvələrinə sərf edir. Çünki müxalifətin dəyişməz vitrini və mübarizə vasitələri iqtidarın siyasi "uğur"larının rəhnidir. Onlar müxalifətlə hər seçki saxtakarlığından sonra güc müstəvisində haqq-hesab çürütməyin üsulunu illər uzunudur sınaqdan keçiriblər. Bu mizanda nəyinsə dəyişməsini heç istəməzlər. Düzü, bir sıra müxalifət liderləri üçün də belə balans sərfəlidir. Ötən proseslərdə "sınaq"dan çıxarılmış bəziləri həlledici məqamlarda hakimiyyətin işinə yarayırlar. Hakimiyyətin ortodoksal kəsimi bu münasibətlər sisteminin dəyişməsində həvəsli görünmür. Ötən il biz bunun əyani nümunəsinin şahidi olmuşduq. Çünki ölkə siyasi qüvvələrinin qarşılıqlı anlaşması siyasi münasibətlərə şəffaflıq gətirər, düşmənçiliyi aradan qaldırar, ortodoksların vaciblik əmsalı aşağı düşər və ölkə normal siyasi dönəmə daxil ola bilər. Belə perspektiv "qırğı" təbiətli bu şəxsləri dövlət büdcəsini talamaqdan qoya bilər. Xəzinəni sümürməyə vərdiş etmiş bu sinif, hər vəchlə belə perspektivə qarşı mübarizə aparır".

**Ə.Əliyev vurğuladı ki, antiböhran koalisiyası ölkədə baş vermiş maliyyə və iqtisadi sarsıntı fonunda yaranmış təşkilatdır:** "Çalışırıq bu ittifaqı özünə qapanmaqdan hifz edək. Təşkilat bütün kateqoriya ictimai-siyasi fəallıq üçün açıqdır. Daha çox siyasi məqsədləri güdsə də, koalisiya öz sıralarında hakimiyyətlə dinc, qanuni, hüquqi və prinsipial mübarizəyə hazır olan bütün təbəqə qurum və insanları ağuşuna almağa hazırdır. Biz hakimiyyətə vəziyyətdən çıxmaq üçün təkliflər vermək, dialoqa dəvətlə yanaşı, onları uğursuz idarəçilikdə məhdudlaşdırmaq üçün konkret əməli addımlar atırıq. Keçirdiyimiz kütləvi görüşlər cəmiyyətin maarifləndirilməsi və təşkilatlandırılması məqsədi güdür. Növbədənkənar parlament seçkilərinin keçirilməsi üçün hüquqi mexanizm işə salınıb, kütləvi tədbirlər-açıq hava görüşləri üçün təşkilat komitəsi yaradılıb. İnanmaq istəyirəm ki, yaratdığımız koalisiya əvvəl yaranmış birliklərin taleyini təkrarlamayacaq. Sualınızda qeyd etdiyiniz məqam da buna ümid etmək üçün əsas sayıla bilər. Bu formatın intriqasız, şəffaf və uzunömürlü olmasını istərdim. Belə olması tərəflərin məqsədlərindən, elan etdikləri prinsiplərə sadiqliyindən və siyasi yetkinliyindən asılı olacaq".

❑ **Etibar SEYİDAĞA**

# "Hamı kabab yeyir, amma qoyun adını çəkəndə..."

## Hadı Rəcəbli: "Torpağın boş qalması yaxşıdır, yoxsa orda bir inəyin otlaması?"

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli növbəti təklifi ilə mətbuatın gündəminə gəlib. Komitə sədri Azərbaycanda hər ay yüzlərlə ailənin ünvanlı sosial yardım aldığını, bu yardımın isə nağd ödəniş formasında həyata keçirildiyini, yəni müəyyən edilmiş vəsaitin ünvanlı sosial yardım alan şəxsin kartına köçürüldüyünü deyərək bunu kənd yerində yaşayan sakinlər üçün əlverişsiz variant sayıb.**

*Deputatın fikrincə, nağd ödəniş əvəzinə kəndlərdə yaşayan ailələrə qoyun verilməlidir. H.Rəcəbli hesab edir ki, burada məqsəd ələbaxımlılığın qarşısını almaqdır. Komitə sədri qeyd edib ki, Azərbaycan ünvanlı yardımların verilməsində Pakistan və Banqladeş təcrübəsindən yararlanmalıdır. "Bizdə kənd yerlərində bir ailə orta hesabla 130 manat ünvanlı yardım alır. Bu, 2 aylıq bir qoyunun puludur. Yardımlı, Gədəbəy kimi dağ rayonlarında yaşayan ailələrə 5 ayın pulunun əvəzində, biri erkək olmaq şərti ilə 5 qoyun verilir və nəzarət olunur ki, ailə o qoyunlardan bala alana qədər heyvanları kəsməsin. Bu yolla ələbaxımlılığın qarşısını almaq, insanları istehsalata yönəltmək mümkündür" deyə, o bildirib. Lakin H.Rəcəblinin bundan əvvəl səsləndirdiyi bəzi təkliflər kimi, bu fikri də birmənalı qarşılanmayıb və geniş rezonans doğurub. Mövzu ilə bağlı komitə sədrinə müraciət etdik. Deputat əleyhinə səslənən fikirlərlə bağlı öncə bunları bildirdi:*

- Mənim fikirlərim düzgün anlaşılmayıb. Məsələ burasındadır ki, əhalinin kasıb təbəqəsinə müavinət verəndə insanların böyük əksəriyyətinin əli işdən soyuyur, işləmək istəmir, deyir "elə mənə müavinət ver, xərcləyim." Ona görə də dünyada-hələ bunu Azərbaycanda tətbiq etməyiblər-belə ideyalar var və həyata keçirilir. Ancaq bizim ölkədə qaçqınlar və məcburi köçkünlərlə bağlı belə ideyalar həyata keçirilir. Çində, Avropa ölkələrində kreditlərin verilməsinin də müxtəlif formaları var. Kiçik sahibkarlığı yaratmaq üçün formanın biri budur: balalı inək verək, südünü sağsın, qoyun verək, yunundan, ətindən istifadə eləsin. Qoyunçuluq Azərbaycanın bütün mədəniyyətinin tərkibində olub da. Hamı kabab yeyir, amma qoyunun adını çəkəndə başlayırlar artıq-əskik danışmağa. Ona görə də demişəm ki, Yardımlı və Gədəbəy kimi dağ rayonlarındakı sakinlərə pul əvəzinə qoyun versinlər. Başqa yerlərdə adamlara, məsələn, bərbər avadanlığı versinlər, icarə yeri ayırsınlar. Bununla da adamları daha çox əməyə cəlb etmək olar. Yəni ailə müavinəti deyilən müavinət ola bilər, uşaqların sayına, yaxud əlilliyə görə. Amma əl-ayağı üstündə olan, imkanları məhdud, gəliri aşağı olan zəruri ehtiyac meyarına düşən insanlar üçünsə, əlbəttə, belə formalar tapılmalıdır ki, onlar işləsin. Bu, yeni bir şey deyil, Amerika açmamışıq, başqa ölkələrin təcrübəsindən misal gətirmişik. Hadı müəllim hələ bu barədə heç kimə heç nə deməyib, heç kim də bu barədə nəsə eləməyə başlamayıb. Ölkədə də bununla bağlı hansısa addım atılmayıb, bəlkə başqa hansısa variantlar olacaq. Bu, cəmiyyətimizin istəyidir, mənə bu barədə teleqramlar gəlir. Adamlarımız deyir, qardaş, mənə bir inək ver, gedim balalarımı saxlayım, yoxsa bu nədir mən gündə yardım üçün dilənirəm.

**- Deyək ki, adamlara heyvan verildi, o da ələcsizlıqdan satdı, yaxud heyvan yıxılıb tələf oldu, onda necə olacaq?**

- Ona görə də təklif edirik ki, hansı qurum bu inkişaf proqramını tətbiq edir, o da məsələni nəzarətdə saxlayır. Yəni nəzarətdə saxlanılır, tərirlər adama, deyirlər get, orada corab toxu, ya orda dərzi sexi aç!

**- Hadı müəllim, bu məsələlər rəhbərlik etdiyiniz komitədə müzakirə olunubmu?**

- Yox. Mən siyasi elmlər doktoruyam, professoram, siyasi elmlərin bilicilərindən biriyəm. Mənim dediyimi niyə insanlar qəribçiliyə salır? Mən dünyadakı təcrübələri yaxşı bilirəm. Bu işin həm elmi, həm də praktik tərəflərini bilirəm, havadan danışmıram axı.

**- Yəni deyirsiniz bu ideya ölkədə tətbiq oluna bilər?**

- Ola bilər bu cür yox, başqa cür. Demirəm ki, hökmən belə olsun. Formalar var da... Deməmişəm ki, bu, Azərbaycanda tətbiq olunacaq. Demişəm ki, dünyada belə təcrübələr var. Bizim jurnalistlər belədir də, Hadı müəllimin sözündən söz çıxarırlar. Xahiş edirəm elə belə də yaz!(gülür)

**- Bu yaxınlarda kənd təsərrüfatı naziri demişdi ki, ölkədə mal-heyvanın sayı çoxdur. Bu yandan da siz əhaliyə əlavə mal-qoyun paylamağı tövsiyə edirsiniz...**

- Azərbaycanda torpaqlardan səmərəli istifadə olunmur, sərrüfat bir az ayağa duran kimi, ondan əl çəkirlər. Kəndli aldığı qoyunları kəsdisə, daha qurtardı, ona heç nə verilməyəcək. Ancaq nəzarətçi qurum qoymur həmin qoyunlar vaxtından tez kəsilsin. Söhbət təkcə qoyundan getmir. Məsələn, kənddə bir otağı vetorpaqlar boş qalır. Yaxşı, torpağın boş qalması yaxşıdır, yoxsa orda bir inəyin otlaması? Kənd təsərrüfatı nazirinin dediyi başqadır, söhbət məhsuldar inəkdən gedir. Onun dediyi odur ki, bizdə inək çoxdur, amma məhsuldar deyil, cins deyil.



**"Gərək siz yazasınız ki, ay cəmiyyət, Hadı müəllimi qınamayın"**

**- Deməli, ölkəyə yeni cins mal-qoyun gətiriləcək?**

- O da ola bilər. Məsələn, bu gün keçi növləri var, ildə 3 bala, 5 litr süd verir.

**- Əgər sizin təklifləriniz qəbul olunsa, bu, bütün rayonları əhatə eləməyəcək, eləmi?**

- Təbii ki, yox. Mən demişəm ki, məsələn, Yardımlı və Gədəbəydə qoyun, amma Şirvanda inək verməк olar. Özü də söhbət heyvandarlıqdan getmir. Yadınızdadırsa, vaxtilə gözdən əlillər üçün sexlər var idi. Qoy əlillər evdə hansısa işlə məşğul olsun. İmkanı olmayan adama hansısa avadanlıqlar veririk, o da başlayır evdə corab, ya köynək toxumağa. Bu, pisdirmi, qardaş? Ya bir tikiş maşını verirsən, adamlar orda işlə məşğul olur. Bunlar ideyalardır, sadəcə, söhbətdir, heç biri harasa yazılmayıb, konkretləşməyib. Mən havadan danışmıram, dünya təcrübəsindən deyirəm.

**- Niyə əmək və sosial siyasət komitəsi bu ideyaları mükəmməl bir layihə şəklində hazırlayıb parlamentə, ya hökumətə təqdim etmir?**

- Bu gün ünvanlı yardım, sosial müdafiə ilə bağlı bizim qanunumuz var, orda da iş yerləri məsələsi əksini tapıb. Bizim başqa ideyalarımız da var. Bax, görürsünüz, cəmiyyət bunu birmənalı qarşılamadı. Mən bu fikri ona görə səsləndirmişəm ki, cəmiyyətin fikrini öyrənim. Amma bu gün kənddən xəbəri olmayan adamlar başlayır ağzına gələni danışmağa.

**- Təbii ki, istənilən ideya ilə bağlı fərqli fikirlərin səslənməsi qaçılmazdır. Ancaq bəlkə bu ideyanın tətbiqi daha düzgün olardı. Məsələn, bu il vaxt itirmədən imkansız kəndliyə 5 qoyun verilərdisə, gələn il qoyunların sayı ikiqat artardı...**

- Ay sağ ol, tamamilə doğrudur. Bunun üçün də gərək siz yazasınız ki, ay cəmiyyət, Hadı müəllimi qınamayın. Əksinə, ona kömək olaq, dəstək olaq ki, bu qanunvericiliyi ortaya çıxara bilsin...

❑ **Elşad PAŞASOY**

---

# Arvad döyüləndə maşından düşməyən ər



**Samir SARI**

**Bizim bu sosial şəbəkə camaatının qərib bir xasiyyəti var, bu günə bu gün mazutun rəngini müzakirəyə çıxar, yekdil olmazlar. Mütləq rəylər haçalanacaq, ən azı ikitirəlik düşəcək. Bir tirə deyəcək ki, mazut qaradır, o biri deyəcək, keçmişdə bəlkə də elə olub, amma indi məsələyə başqa prizmadan, qeyri-səlis məntiqlə yanaşmaq lazımdır.**

Budur, internet resurslarında bir yol polisi ilə bir sürücü qadının qovğasını əks etdirən videokadrlar yayılıb və sosial şəbəkə əhli iki qeyri-bərabər hissəyə ayrılıb. Hələlik əksəriyyət qovğa zamanı boyun-boğaz nahiyəsinə aldığı və düzgün təsnifatlandırıla bilinməyəcək *(bu yumruqdumu, silləydimi, itələtməydimi, yaxşı bilinmir)* zərbə nəticəsində asfalta sərilən qadının tərəfindədir.

Heç kim sifətin cırılmış-cızılmış xəsarətləri diaqnozu ilə təcili şəkildə hospitala yerləşdirilən yol polisinin halına yanmır, hamı hesab edir ki, belə filmlərə əvvəl bir-iki dəfə baxıb. *(Bu məsələyə sonrakı abzaslarda bir daha qayıdarıq).*

Bununla belə, əri maşının qabaq oturacağında ola-ola özü maşınından enib yol polisi ilə əlbəyaxa olan qadının hərəkətlərini qınayanlar da var. Bəziləri sırf onun geyiminə vurğu edir, deyirlər, qışın oğlan çağında, hamının qalın gödəkçədə olduğu bir zaman bu qadın niyə əyninə yay-kurort tişortu geyib. Amma bunun məsələyə, qadının sosial statusuna, peşəsinə heç bir dəxli yoxdur. Görünür, avtomobilin içi istidir, üstəlik, qadın qalın geyinəndə sükan arxasında tıncıxır, ona görə yüngül geyinib. Bu heç.

Əsas qınaq obyekti yol polisinin davranışıdır. O, qadını zərblə özündən aralayır, amma çəkiləri arasında iki dəfəlik fərq olduğu üçün qadın yıxılır və bu hərəkət "cənnətin anaların ayağı altında olduğu"nun dəqiq təsbit edildiyi ölkədə kəskin reaksiya doğurur.

Polisin müdafiəçiləri deyirlər ki, bəs o, nə edəydi, axı sürücü qadın ona müqavimət göstərirdi, üzünü və poqonunu cırmaq istəyirdi. Bu fikrə qarşı olanlar isə bildirirlər ki, yox, hər necə olsa da, yol polisi dözümlü yanaşmalıydı.

Elə adamlar var, yazırlar ki, eh, bu hadisə təriflədiyiniz Amerikada olsaydı, şerif müqavimət göstərən qadını yerindəcə güllələyərdi. Burası doğrudur. Gerçəkdən də hər il ABŞ-da polislər 500-1000 arası adamı belə hərəkətinə görə güllələyirlər. Bəzi qurbanlar heç müqavimət göstərmək istəmirlər, sadəcə, əlləri instinktiv olaraq ciblərinə tərəf gedir və polis onun tapançaya əl atdığını düşünür. Bayaqdı ha, pişto açılır - özü də dalbadal 3 dəfə. Bu da heç.

Bir çoxları (bunlar üçüncü tirədir) isə avtomobilin qabaq oturacağında oturan ərin soyuqqanlılığından heyrətlənib. Onlar deyirlər ki, bu necə ərdir, arvadını vurub asfalta səriblər, amma o, yerindən qımzanmır, maşından düşmür.

Şəkkak adamlar deyirlər, siz bilmirsiniz, o maşından düşməyən adam heç də ər deyil, ər olsa düşərdi. Sual çıxır: bəs kimdir? Cavab belədir: O adının çəkilməsini, üzünün görünməsini istəməyən sərnişindir, ailə dostudur, ona görə qovğaya qarışmaq istəmir. Çox xub. Demək, belə də olur. Kəşfiyyata belə adamla gedəsən. Soyuqqanlı olduğuna görə.

Sürücü qadını qınayanlardan bəziləri deyirlər ki, axı o, niyə bu qədər həyəcanlanırdı? Çox da ki, yol polisi onun avtomobilini saxlayıb, tutaq ki, cərimə də yazacaq, nə olsun? Hər gün minlərlə sürücünün başına gələn işdir. Ona qalsa, gecə saat 2-də sükan arxasında içkili tutulan xanım prodüserlər və müğənnilər gərək intihar eləsinlər.

Yaralı yol polisinin təcili şəkildə lazaretə yerləşdirilməsinə gəlincə, gərək bu işi təşkil edənlər heç nəyi olmasa da, mundirin reputasiyasını nəzərə alaydılar.

Sovet vaxtı bizim rayonda belə bir hadisə olub. Üzüm bağının gözətçisi görüb ki, bağa oğru girib, üzüm oğurlayır. Ağsaqqal tüfəngi götürüb, qaraltılara doğru bir güllə atıb. Qırmalar gəlib bir sovet əsgərinə dəyib və o, "Fedya, tı beqi, ya umirayu" deyərək ölüb. Gözətçini tutublar. Məhkəməsi olub. Ağsaqqal məhkəmədə özünə belə bəraət qazandırıb: "Məni qoruyan əsgərə bax ey, bir gülləyə öldü".

İndi o ağsaqqalın sözü olmasın, yolu qoruyan polisə bax, bir cırmaq yarasından hospitala düşüb.



# Pətöş kişinin qoyunları

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən sərəncam verildi, Mədəniyyət və Turizm Nazirliyinin nəzdindəki Milli Kulinariya Mərkəzinin işçilərinin maaşı 10 faiz artırıldı. Mənə maraqlı gəldi ki, görəsən, bu mərkəzdə nə qədər işçi vardır, onların böyük ehtimalla qəpik-quruşdan ibarət maaşlarını cəmi 10 faiz artırmaq üçün dövlət başçısı səviyyəsində işə qarışmaq niyə önəmli olmuşdur? İnternetdə axtarıb tapdım, məlum oldu mühasib, kababçı və qabyuyanla birgə cəmi 15 nəfərdir.**

Bu da krizisin daha bir əlamətidir. Vaxt var idi bizdə bütün nazirliyin, ya da hansısa peşənin maaşı adətən seçki qabağı artırdı. İndi zalım devalvasiya seçki-filan gözləmir, gərək vaxtaşırı hansısa fərmanlar verilsin, qatarın pərdələri yellənsin, qıraqdan baxan bizim harasa getdiyimizi zənn eləsin. Əks halda, alınmır. "Təhsil işçilərinin maaşı artırılsın", "həkimlərin pulu çoxalsın" tipli sərəncamlar geridə qalmışdır. Bundan sonra ola bilər "5 saylı xəstəxananın tibb bacısı Gülçöhrə xanımın maaşına 5 manat əlavə edilsin" tipli sərəncamlar gələcəkdir.

Deputatlardan biri təzəlikcə zəhmətkeşlərə məsləhət görmüşdü: gedin soğan əkin, yaxşı yaşayın. Onun başqa bir həmkarı isə dünən növbəti səmərələşdirici təklifi irəli sürmüşdür, deyir, kasıblara ünvanlı sosial yardımı pul şəklində vermək düzgün siyasət deyil, əvəzində qoyun alaq verək, qoyunu saxlayıb varlansınlar. Təxminən Molla Nəsrəddinin borcu qaytarmaq üsulu kimi: "Burdan qoyun sürüsü keçir, onların yunu qaratikana ilişib qalacaq, yunları yığıb sap əyirəcəm, sapdan corab toxuyub satacağam, sənin borcunu qaytaracağam".

Görün bizim deputatxanada nə qədər milləti düşünən insanlar toplaşıbdır! Açığı, mən devalvasiyanın bu qədər büdcəyə təsir elədiyini düşünməzdim. Əgər bunlar hansısa yetimə ildə 500 manat tapmırsa, bunu 100 manatlıq yoluq bir qoyunla birdəfəlik həll eləmək fikrindədirlərsə, deməli, büdcədə siçanlar "Köçəri" rəqsi oynayır. Bu, YUNESKO xətti ilə adımıza keçirməyə hazırlaşdığımız milli rəqsimizdir, yəqin bilirsiniz, keçən dəfə yazmışam.

Ancaq təkcə soğan əkmək, qoyun otarmaqla zəhmətkeşlərimizi yola verə bilmərik, bunun hansısa kompleks həll üsulu hazırlanmalıdır. Hələ hörmətli deputatlardan siçan dərmanı, iprit qazı, Zika və Ebola virusları təklif edilməyibsə, məncə, eləsinlər. Bunları tətbiq eləməklə yoxsulluq problemini, ümumən isə azərbaycanlıların yerli-yersiz cükküldəşməsinin qarşısını almaq olar. Deputatlar da qiymətli vaxtlarını faydalı işlərə sərf edərlər, örnək üçün, soğan əkməyi təklif edən deputat seçilmiş əsərlərinin növbəti cildini - "Çadırda soğan əkmək olmaz" romanını uca millətimizə bağışlayar. Qoyun təklifi irəli sürən deputat isə Lənkəranda özünün növbəti restoranını açar.

Bayaq Mollanın adını çəkdim, onun başqa bir lətifəsi də var, deyir, bir gün camaat yığışır, hansısa dərdinə dərman üçün padşaha şikayətə Mollanı göndərir. Molla gəlir qəbula, padşah buna baxır, məzələnmək üstəyir: "O kənddə başqa adam olmadı ki, səni göndərdilər?" Molla deyir: "Var idi, qibleyi-aləm. Sadəcə, adamı adam yanına göndərdilər, məni də sənin yanına". Demək istəyirəm ki, biz elə bu sistemə, həmçinin deputatlarımıza layiqik.

Sonda Sayalı xanım özünü yetirdi, yazımıza nöqtəni və adı qoydu. Yəqin onu tanıyırsınız, hər dəfə ara qarışanda AMEA-nın işçisi, NK yanında Terminologiya Komissiyasından Sayalı bacı efirə çıxır, millətin üzünə deyir ki, siz busunuz, adınız Xiyardır, Pitişdir, nə bilim, Fətöşdür, yumrulanın, bir yerə qısılın, yatışın, sizdən adam olan deyil, hələ hökumət nə qədər əziyyət çəkir sizin adınızı tapmaq üçün. Dünən Sayalı xanım növbəti adqoyma mərasimi keçirib, intervü verib. Qələmi ona verim, mən getdim: "Son dövrlər qızına Peşiman adı qoymaq istəyən valideyn var idi. Ona tövsiyə edildi ki, uşağın gələcəyi üçün bu adın qoyulması məsləhət görülmür. 2012-ci ildə uşağına Xiyar, Xiyarə adı qoymaq istəyənlər vardı. Ədliyyə Nazirliyinə müraciət olunmuşdu. Biz tezliklə cavab verdik ki, belə ad qoyula bilməz. Son dövrdə belə bir ad üçün müraciət edilmişdi - Məmişov Əliş Pətöş oğlu".

Ancaq qayıdıb bir əlavə eləmək istəyirəm ki, həqiqətən peşmançılıqdır. Tutalım bunun Əliş olmasına Sayalı xanım imkan vermədi, bəs Pətöş necə olacaq? Bu ki, yekə bir kişidir.

# Prezidentdən daha bir inqilabi fərman

## Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarının ixracı ilə məşğul olan iş adamlarına dövlət büdcəsinin vəsaiti hesabına əlavə ixrac təşviqi vəsaiti ödəniləcək; "Əmanətlərin tam sığortalanması haqqında" Qanun da imzalandı; banklarda yerləşdirilən əmanətlər 3 illik gəlir vergisindən azad olundu

**Martın 1-də Azərbaycan prezidenti İlham Əliyev ixracın təşviq edilməsinə yönələn əlavə tədbirlər haqda fərman imzalayıb. Virtualaz.org prezidentin rəsmi saytına istinadən xəbər verir ki, fərmana əsasən Azərbaycan ərazisində istehsal olunan qeyri-neft məhsullarının ixracı ilə məşğul olan iş adamlarına dövlət büdcəsinin vəsaiti hesabına əlavə ixrac təşviqi vəsaiti ödəniləcək.**



Fərmanda deyilir ki, ödəniləcək ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 (üç) faizini təşkil ediləcək.

Fərmanda Nazirlər Kabinetinə göstəriş verilir ki, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan iş adamlarının təşviq edilməsi qaydasını və ixrac təşviqinə şamil olunacaq məhsulların siyahısını bir ay müddətində prezidentlə razılaşdırmaqla müəyyən etsin. Habelə ixrac təşviqinin ödənilməsi üçün bu ilin dövlət büdcəsində, cümlədən sonrakı 4 il üçün dövlət büdcəsində ayrıca vəsaitin nəzərdə tutulması təmin edilsin. Fərman bu il martın 1-dən qüvvəyə minir və 2020-ci ilə qədər qüvvədə olacaq.

Xəbər verildiyi kimi, Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviq edilməsi prezident İlham Əliyevin yanvarın ortalarında ölkədəki iqtisadi vəziyyətə həsr olunmuş müşavirədəki çıxışı zamanı elan olunan yeni iqtisadi siyasətin əsas prioritetlərindən birini təşkil edirdi. İxracın təşviq edilməsi praktikasından bir çox ölkələr, məsələn, Türkiyə uğurla istifadə edib. Türkiyədə bu praktikanın tətbiq olunması ixrac həcminin kəskin artmasına və beləliklə də ümumi iqtisadi inkişafa ciddi təkan vermişdi.

İndi Azərbaycan prezidentinin bu fərmanı ölkə iqtisadiyyatının inkişafının qeyri-neft relsləri üzərinə keçirilməsində mühüm əhəmiyyət kəsb edəcək və ölkədə rəqabətədavamlı qeyri-neft məhsullarının istehsalını genişləndirəcək. Məsələn, hansısa iş adamı Azərbaycandan 10 milyon dollarlıq mal ixrac etsə, dövlət büdcəsindən 300 min dollar vəsait ala biləcək. Deməli, iş adamları Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarını xarici bazarlara çıxarmaqda maraqlı olacaqlar.

Məsələ burasındadır ki, Azərbaycanda son texnologiyalarla təchiz edilmiş avadanlıqlara malik müəssisələr, o cümlədən emal müəssisələri qurulsa da onların istehsal etdiyi məhsulların xarici bazarlara çıxarılması işi indiyədək o qədər də uğurla təşkil edilməmişdi. İndi həyata keçirilən iqtisadi islahatlar, gömrük sistemində həyata keçirilən dəyişikliklər sayəsində Azərbaycandan məhsul ixrac etməyin qarşısında dayanan maneələr aradan qalxır, üstəlik, dövlət ixracatçılara pul da ödəyir...

Prezident həmin gün "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli qanununun tətbiqi barədə də sərəncam imzalayıb.

Qeyd edək ki, "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun məqsədi qlobal iqtisadiyyatda baş verən proseslər fonunda ölkədə maliyyə sabitliyini qorumaq, bank sisteminin dayanıqlığını təmin etmək, əmanətçilərin bank sisteminə etibarını gücləndirməkdir.

Qanun qüvvəyə mindiyi gündən etibarən faizləri "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.20-ci maddəsinə müvafiq olaraq Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər məbləğindən asılı olmayaraq bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa (lisenziyaya) malik olan fondun iştirakçı bankları tərəfindən 3 (üç) il müddətində tam sığortalanır.

Qorunan əmanətçilərin bu qanunun qüvvəyə mindiyi günə bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa (lisenziyaya) malik olan banklarda mövcud olan və illik faiz dərəcələri Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasının müəyyən etdiyi illik faiz dərəcəsi həddindən yuxarı olan əmanətləri həmin əmanətçilərin müraciəti əsasında müddəti qurtarmamış əmanət müqavilələrində bu qanunun 3-cü maddəsinin tələblərinə uyğun olaraq müvafiq dəyişikliklər edilməklə tam sığortalanır. Eyni zamanda qanuna müvafiq olaraq müddəti qurtarmamış əmanət müqavilələrində dəyişikliklər edildikdə, dəyişikliklər edildiyi günə qüvvədə olan müqavilənin şərtlərinə uyğun olaraq faizlər tam məbləğdə hesablanıb əmanətçiyə ödənilir.

Əmanətlərin Sığortalanması Fondunun iştirakçı banklarında sığorta hadisəsi baş verdikdə tam sığortalanmış əmanət üzrə kompensasiya əmanətin 100%-i həcmində "Əmanətlərin sığortalanması haqqında" Qanunun 26.1-ci maddəsində nəzərdə tutulan şərt tətbiq edilmədən ödənilir. Bu qanunun 3-cü maddəsində nəzərdə tutulmuş müddət bitdikdən sonra tam sığortalanmış əmanətlər üzrə kompensasiyaların həcmi "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə əsasən müəyyən edilir. Qeyd edək ki, güzəşt müddəti fevralın 1-dən başlayır.

Banklarda yerləşdirilən əmanətlər 3 illik gəlir vergisindən azad olundu

Prezident "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli qanununun tətbiqi barədə də sərəncam imzalayıb.

Qeyd edək ki, 2016-cı il fevralın 1-dən etibarən 3 (üç) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən divident, diskont *(istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq)* və faiz gəlirləri gəlir vergisindən azad olunur.

YENİ MÜSAVAT
N 49 (6370) 2 iyul 2015

# Bakı və Tiflis arasında mühüm anlaşma - gözlənilən oldu

## Azərbaycan Gürcüstanın İran və Rusiyadan qaz asılılığına düşməsinə imkan vermədi; işğalçı ölkənin tranzit ölkə olmaq arzusu da gözündə qaldı

**Bakıda Cənub Qaz Dəhlizi (CQD) Məşvərət Şurasının 2-ci toplantısı uğurla başa çatdı. Rusiyadan yan keçəcək bu kəmərlər sisteminin layihədə iştirakçı ölkələrin energetik və milli təhlükəsizliyinə böyük töhfə verəcəyi artıq şübhə doğurmur. Prezident İlham Əliyev toplantıdakı çıxışında ilk növbədə bu aspektə diqqət yönəltmişdi.**



CQD layihəsində əsas iştirakçı (tranzit) ölkələrdən biri də Gürcüstandır. Qonşu ölkəni Bakı toplantısında baş nazirin müavini, energetika naziri Kaxa Kaladze təmsil edirdi. Nazirin səfəri son vaxtlar Gürcüstanın öz bazarı üçün Rusiyadan ("Qazprom") və İrandan (Ermənistandan keçməklə) əlavə qaz almağa dair danışıqlar aparması baxımından ikiqat önəm daşıyırdı.

Məlumdur ki, Gürcüstanın siyasi müxalifəti, ictimai və ekspert dairələri, o sırada sabiq prezident Mixail Saakaşvili neçə vaxtdır konkret olaraq Rusiya qazından asılılığın artmasını ölkənin suverenliyi və müstəqilliyinə real təhlükə sayırlar - xüsusən də Kremlin bölgədə hərbi cəhətdən gücləndiyi indiki məqamda. "Qazprom" əleyhinə Tiflisdə dəfələrlə etiraz aksiyaları da keçirilib - özü də ideyanın əsas müəllifi hesab edilən, "Qazprom"da pay sahibi olduğu deyilən sabiq baş nazir Bidzina İvanişvilinin ofisinin qarşısında...

***

Bakı səfəri öncəsi isə Kaladze bəyan eləmişdi ki, Azərbaycanda SOCAR rəhbərliyi və "Şahdəniz" konsorsiumunun rəsmiləri ilə görüşəcək və "Şahdəniz" qaz kəməri ilə əlavə qaz almağın mümkünlüyünü müzakirə edəcək. "Çox nikbin ovqatdayıq və düşünürük ki, müəyyən anlaşma əldə edəcəyik. Yalnız bundan sonra tam mənzərə üzə çıxacaq ki, "Qazprom"la danışıqları necə yekunlaşdıraq. Fikrimcə, danışıqları sürəkli başa vurmağı bacaracağıq", - deyə nazir nikbinliklə qeyd eləmişdi.

Bu mənada nazirin Bakı səfəri kulminasiya nöqtəsi sayılırdı. Səfəröncəsi həmçinin, Gürcüstanın Azərbaycandan yeni təklif aldığı haqda maraqlı məlumat yayılmışdı. "Tabula" telekanalının yaydığı məlumatda Gürcüstanın neft-qaz şirkətinin adının açıqlanmasını istəməyən rəsmi nümayəndəsinə istinadən bildirilirdi ki, SOCAR Gürcüstana qaz tədarükünü 500 milyard kub metr artırmağı və qaz üçün aşağı qiymət təklif edib, bunu da "Şahdəniz" qaz kəməri vasitəsilə təmin edəcəyinə boyun olub.

**Kaladzenin səfərsonrası açıqlamasından görünür ki, anlaşma, hər halda, baş tutmuş hesab oluna bilər. Belə ki, Bakıdan qayıtdıqdan sonra o, mediaya açıqlamasında bildirib:** "Azərbaycandan əlavə qaz həcmlərinin alınması məsələsi faktiki olaraq həllini tapıb. Bakıya səfərim çərçivəsində mən prezident İlham Əliyevlə, SOCAR-ın rəhbəri ilə görüşdüm. Görüşlərdə "Şahdəniz" layihəsi müzakirə olundu. SOCAR prezidenti ilə görüşdə biz əlavə qaz həcmlərinin alınmasını müzakirə etdik. Bu, bizim daxili tələbatımız üçün olduqca mühüm məsələdir. Faktiki olaraq, əlavə qaz həcmlərinin alınması ilə bağlı əsas razılıq əldə olundu".

"Qazprom"la danışıqların taleyinə gəlincə, baş nazirin müavini deyib ki, "Bakı anlaşması ilə əlaqədar" şirkətlə danışıqlar bir neçə günə yekunlaşacaq...

***

Beləliklə, qənaət hasil olur ki, Gürcüstana daha bahalı olan İran qazı da lazım olmayacaq - hansı ki, Ermənistan ərazisindən nəql ediləcəyi istisna olunmurdu. Bu xüsusda Bakı anlaşması həm də siyasi anlam daşıyır - bir yandan bu anlaşma "Qərb qapımız" Gürcüstanın Rusiyaya qarşı energetik təhlükəsizliyini gücləndirirsə, digər yandan da işğalçı Ermənistanın İran qazı üçün istər Gürcüstana, istərsə də perspektivdə Avropaya tranzit ölkə olmaq arzusunu gözündə qoyur, onun əlavə iqtisadi qazanc götürməsini əngəlləyir.

Xatırladaq ki, hazırda Gürcüstanın təbii qaza olan ehtiyacının təxminən 90 faizi Azərbaycan qazı hesabına ödənir. Yerdə qalan həcm isə Rusiya qazının Ermənistana nəqlinə görə alınan tranzit xərcləri qarşılığında "Qazprom"dan alınır.

Bəzi təhlilçilərə görə, rəsmi Tiflisin aylardır əlavə qaz alınması ətrafında yaratdığı intriqalı ajiotaj Gürcüstanın qaz bazarında SOCAR-ın inhisarçı mövqeyini zəifləmək və enerji mənbələrini şaxələndirmək istəyindən daha çox, elə məhz Azərbaycan qazını daha ucuz kommersiya qiymətinə almağa hesablanıb. Buna nə dərəcədə nail olunduğu yəqin ki, yaxın günlərdə - "Qazprom"la danışıqlara nöqtə qoyulanda bilinəcək.

❑ **Siyasət şöbəsi**

# OPEK hasilatı azaltdı-ekspertlər "qiymət artımı müvəqqətidir" deyir

## "Hökumət neftin bahalaşmasına ümid bəsləmədən islahatlara başlamalıdır, əks halda, ölkədə vəziyyət pisləşəcək"

**Dünya bazarında neftin qiyməti yenidən yüksəlib. İCE London birjasında Brent markalı neftin qiyməti 0,5 faiz artaraq bareli 35,30 dollar olub. WTI markalı neftin aprel fyuçersi isə bir qədər ucuzlaşaraq bareli 32,74 dollardan satılıb.**




Qeyd edək ki, neftin qiymətinin aşağı olması bir müddət əvvəl neft hasilatının dayandırılması kimi fikirlərin ortaya çıxmasına səbəb olub. İlk olaraq Rusiya, Səudiyyə Ərəbistanı, Venesuela və Qətər neft istehsalını yanvar ayı səviyyəsinə uyğun dondurmaq qərarı almışdı. Bu qərardan dərhal sonra neftin qiyməti 30 dollardan 34 dollara qalxmışdı. Üstəlik, Əlcəzair, Nigeriya, Ekvador və Oman kimi ölkələr bu cür müzakirələr başlamışdı. OPEK prezidenti Abdulla əl-Bədri isə buna cavab olaraq bildirib ki, ABŞ-da şist neft hasil edən şirkətlər digər ölkələrin neft hasilatını azaltdıqları təqdirdə yaranan kəsiri tez bir zamanda doldurmağa hazırdır. Onun sözlərinə görə, OPEK üzvləri və digər ölkələrin neftin qiymətini artırmaq üçün hasilatı azaltmaq və ya dondurmaq cəhdləri uğursuz olacaq. Çünki neftin bahalaşması ABŞ-ın şist neft hasilatçılarının çox qısa zamanda neft hasilatını artırması ilə müşayiət olunacaq.

Əl-Bədrinin sözlərinə görə, OPEK heç vaxt belə tez zamanda bərpa olunan enerji mənbəyi ilə rəqabət aparmayıb. Bu vəziyyət kartelə neft hasilatını azaldaraq qiymətlərin düşməsini əngəlləməyə imkan vermir.

"Energy Intelligence Group" konsaltinq şirkətinin proqnozlarına əsasən, ABŞ 2016-cı ildə neft hasilatını ən çox artıran ölkə olacaq. Onun OPEK üzvü olmayan neft hasilatçısı ölkələr içərisindəki payı 60 faizə qədər və ya gündəlik 500 min barel artacaq. Bu da o deməkdir ki, neftin qiymətinin stabilləşməsi üçün öncə ABŞ-la razılaşmaq lazımdır. Lakin ABŞ qanunvericiliyinə əsasən, OPEK-lə dialoq mümkün deyil, çünki Energetika Nazirliyi özəl şirkətlərin fəaliyyətinə müdaxilə edə bilməz. Proqnozlara görə, neftin qiymətində artım olsa belə, bu, qısamüddətli və texniki dəyişiklik olacaq. Neftin qiyməti yaxın 1-3 il ərzində 20-40 dollar/barel arasında dəyişəcək. Barelin 40 dollara yaxınlaşması isə öz növbəsində ABŞ-da hasilatın artmasına gətirib çıxaracaq və nəticədə qiymətlər kəskin enməyə başlayacaq.

**Ekspert İlham Şabanın sözlərinə görə, belə bir şəraitdə hasilatın 11 yanvar səviyyəsində dondurulması bazara o qədər təsir etməyəcək. O qeyd edib ki, hasilatın azaldılması hələ ki niyyət xarakteri daşıyır:** "Qərardan sonra bazar ilkin real reaksiya verdi və nəticədə neftin qiyməti 35 dollaradək artdı. Ancaq sonra yenidən 33 dollara düşdü. Nə qədər ki, ortada imzalanmış bir sənəd yoxdur, OPEK və qeyri-OPEK ölkələri hasilatın azaldılmasına dair razılığa gəlməyiblər, neftin qiyməti 34-35 dollar arasında dəyişəcək. Martda OPEK ölkələrinin konfransı keçiriləcək. Çox güman ki, OPEK neft hasilatının azaldılması ilə bağlı qərar qəbul edəcək. Bu isə neftin qiymətində qalxmalara müşahidə olunacaq". **O, həmçinin qeyd edib ki, bundan sonra hasilatın artırılmaması pozitiv addımdır:** "Çünki Səudiyyə 98 faiz neftdən asılı olan bir ölkədir. Cəmi bir ildən artıq müddətdə 200 milyard dollardan artıq itirilən ehtiyatlar Ər-Riyadın iqtisadiyyatına çox böyük ziyan vurub".

Bildirilir ki, bir ildən artıqdır neft diplomatları "səhnə arxasında" OPEK və kartelə daxil olmayan neft hasilatçısı ölkələrlə danışıqlar apararaq, neftin qiymətini stabilləşdirməyə çalışırlar. Əvvəlcə Əlcəzair, sonra Qətər tərəfindən həyata keçirilən "gizli manevrlər" Rusiya ilə Səudiyyə Ərəbistanı arasında neft hasilatının 2016-cı ilin yanvar ayının səviyyəsində "dondurulması" barədə sazişlə nəticələnib. Bildirilir ki, dünyanın iki ən iri neft hasilatçısının energetika nazirlərinin son səkkiz ayda ilk üzbəüz görüşü neft bazarının bölüşdürülməsi uğrunda mübarizəni faktiki olaraq dayandırıb. "Bloomberg"in xəbərinə görə, 1999-cu ildə OPEC ölkələri vahid birlik formalaşdıraraq, ucuzlaşan nefti birdən-birə bahalaşdıra bilmişdilər. Artıq neftin qiyməti qalxıb. Buna ABŞ-da neft buruqlarının azalmasını göstərən hesabat səbəb olub. Belə ki, tələbin yüksələcəyinə ümid artıb.

Qeyd edək ki, 2014-cü ilin ortasından aşırı təklif nefti 70 faiz ucuzlaşdırıb. Təhlilçilər bildirirlər ki, qiymətin davamlı aşağı həddə qalması hasilatın baha başa gəldiyi məkanlarda, məsələn, Şimali Amerikada xərclərin azaldılması məqsədilə hasilatın kəsilməsinə gətirir. Qeyd edək ki, "Prestige Economics" şirkətinin prezidenti və baş iqtisadçısı Jason Schenker bildirib ki, qiymətin cüzi artımı bir çox neft şirkətlərini, eləcə də ABŞ iqtisadiyyatını fəlakətdən qurtara bilməz. Azadliq.org-un məlumatına görə, "Sadəcə, qiymətlər elə sürətlə qalxmır ki, neft və enerji şirkətlərini defoltdan xilas eləsin. Maliyyə şirkətlərinə, onlardan da iqtisadiyyata zəncirvarı risk təhlükəsi qalmaqdadır",- deyə ekspert bildirib. Onun sözlərinə görə, bu o deməkdir ki, bu ilin sonunda, ya da gələn ilin əvvəlində ABŞ iqtisadiyyatında böhran başlana bilər. Təhlilçinin fikrincə, neftin barelinin 30 dollar civarında qalması ABŞ qazmaçılarını borcların defolt elan etməkdən qoruya bilməyəcək. Sonucda bankların gəlirlərinə təzyiq yüksələcək. Banklar kreditləri azaltdıqca, şirkətlər də ixtisarlara getməli olacaq.

Ekspert İlham Şaban isə qeyd edib ki, neftin hazırkı aşağı qiyməti 10 il davam edəcək. Hazırda alternativ enerji öz payını artırır və nefti bahalaşmağa qoymur.

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, neft hasilatının azaldılması barədə razılıq neft satışına ciddi təsir göstərməyəcək:** "Bu danışıqların nəticə verəcəyi sual altındadır". Onun sözlərinə görə, Azərbaycan neftin bahalaşmasına ümid bəsləməməlidir: "İslahatlara başlamaq lazımdır. Bunu gecikdirməklə ölkəni xaosa yaxınlaşdırırlar". Qeyd edək ki, OPEK fevral ayının sonu etibari ilə neft hasilatını sutkalıq 280 min barel azaldıb.

Virtualaz.org Rusiya KİV-nə istinadən bildirir ki, neft hasilatındakı ən ciddi azalma İraqda qeydə alınıb. Belə ki, terror aktı səbəbindən fevralın 17-dən etibarən Şimali İraqla Türkiyəni birləşdirən neft boru xətti istifadə olunmur.

Səudiyyə Ərəbistanında və İranda hasilatın azalması qeydə alınmayıb.

❑ **RÖYA**

**Azərbaycan Konstitusiyasının 61-ci maddəsi "Hüquqi yardım almaq hüququ"nu nəzərdə tutur. Bu maddəyə əsasən hər bir kəsə yüksək keyfiyyətli hüquqi yardım almaq haqqı tanınır. Bəs bu gün Azərbaycanda bunu həyata keçirmək üçün real şərait varmı?**

# "Azərbaycanda vəkillərin özləri də hüquqsuz durumdadırlar"

## Aslan İsmayılov: "Əksər vəkillər hüquq-mühafizə orqanlarının sifarişi ilə işləməyə məcburdur"

*Azərbaycanın tanınmış hüquqşünası Aslan İsmayılovla bu mövzuda söhbətləşdik. O, öncə vəkillik fəaliyyətinin vəziyyətindən danışdı:*

- Bu gün vəkillik institutu haqda danışmaq yersizdir. Ona görə ki, belə bir institut Azərbaycanda yox edilib. Vəkillik institutunun adı qalıb, faktiki isə özü yoxdur. Hüquq-mühafizə orqanlarının sifarişini yerinə yetirən qurum var. 1-2 vəkil var ki, onlar qanunlar əsasında çalışmaq istəyirlər. Onlara da imkan vermirlər. Bir çox belə vəkilləri ən müxtəlif bəhanələrlə vəkillikdən xaric etdilər. Əhali arasında xoş olmayan əməlləri ilə tanınan vəkilləri yuxarı başa keçiriblər, şan-şöhrət sahibinə çeviriblər. Ona görə ki, belələrini idarə etmək çox asandır.

***- Belə bir vəziyyətdə Azərbaycan vətəndaşının hüquqi yardım almaq haqqının vəziyyətini necə qiymətləndirirsiniz?***

- Bu gün "Azərbaycan vətəndaşı müdafiəsizdir" deməyə hamının haqqı var. Əksər vəkillər hüquq-mühafizə orqanlarının sifarişi ilə işləməyə məcburdur.

***- Ölkədə polisin sayı nə qədərdir?***

- Azərbaycanda polisin sayı əhalinin sayına görə dünyada ilk sıralarda duran ölkələrlə eyni sırada dayanır. Hər 100 min nəfərə 456 polis düşür.

***- Azərbaycanda prokuror nə qədərdir?***

- Əhalinin sayına görə ən rekord sayda prokurorluq işçisi var.

***- Bəs vəkilləri sayı nə qədərdir?***

- Əgər vəkillərin sayını əhalinin 100 min nəfərinə nisbətdə götürsək, vəziyyət dünyadakının tam tərsidir. Gürcüstanda, düşmən Ermənistanda vəkillərin sayı Azərbaycandakı vəkillərin sayından qat-qat artıqdır. Normal ölkələrdə isə hər 100 min nəfərə 300-400 nəfər vəkil düşür. Azərbaycanda isə 100 min nəfərə cəmi 10 vəkil düşür. Amma həmin vəkillərin özləri də hüquqsuz durumdadırlar. Vəkil müdafiə etdiyi şəxsin hüquqlarını müdafiə etməyə başladısa, özünün hüquqları pozulmağa başlayır. Basqılar artır.



**"Vəzifədə olanda hər kəsi asıb-kəsən məmurun ayağı büdrəyəndə ilk döydüyü qapı obyektivliyi və savadı ilə seçilən vəkillər olur. Belələri də ölkəmizdə çox azdır"**

***- Bu situasiya niyə yaranıb? Vəkil olmaq istəyən azdır, yoxsa başqa səbəblər var?***

- Vətəndaşı bilərəkdən müdafiəsiz hala salıblar. Bu situasiyanı hakimiyyət bilərəkdən yaradıb. Hazırkı durumda vətəndaşla istədikləri kimi rəftar edirlər. Bilirlər ki, vətəndaş üzləşdiyi qanunsuzluqdan çıxış yolunu vəkildə görəcək, vəkilə üz tutacaq. Vəkil isə sadəcə yoxdur. Adı qalıb, mahiyyəti isə itirilib, yox edilib. Bu gün Azərbaycan vətəndaşı hüquq-mühafizə orqanlarının əsirinə çevrilib. İstənilən vətəndaşı küçənin ortasında saxlayıb ona qarşı istənilən ittihamı verib və hüququ don geydirib həbsə yollaya bilərlər. Bu, acı Azərbaycan reallığıdır. Kimi istəyirlər, tutub cibinə nəşə atır, xuliqanlıqda ittiham edirlər. Həmin o adı vəkil olanların köməkliyi ilə vətəndaşı həbsə yollayırlar.

***- Situasiyanı dəyişmək üçün hansı addımlar atılmalıdır?***

- Hakimiyyət gözükölgəliliklə, ayrı-ayrı fərdlərin hegemonluğu ilə idarə olunmamalıdır. Hakimiyyət qanunlar əsasında idarə olunmalıdır. Məmurlar qanuna hörmət etməlidirlər. Amma bunun əvəzində qanunu pozmaqla məşğuldurlar. Qanuna hörmət etmədikləri üçün vətəndaşı qanuna istinad edib müdafiə etməli olan vəkili də təqib edirlər.

***- Vəkilliyə namizədlərin Vəkillər Kollegiyasına qəbulu da çox çətinliklə baş tutur. Namizəd test imtahanından keçir, amma müsahibədən kəsilirlər. Ümumiyyətlə, bu üsul doğrudurmu?***

- Bu, təkcə vəkillik institutuna aid deyil. Dövlət qulluğuna qəbul da bu şəkildə aparılır. Əgər namizədin kifayət qədər biliyi varsa, o test imtahanını veribsə, onu Vəkillər Kollegiyasına üzv edə, bundan sonra 6 ay, 1 il təcrübə toplama müddəti verə bilərlər. Həmçinin dövlət qulluğu ilə bağlı da eyni praktikanı tətbiq etmək olar. Bunun əvəzində bürokratik əngəllər yaradırlar, qondarma müsahibə əlavə olunur. Kim bu hakimiyyətə tərif yağdırırsa, dünyagörüşü hakimiyyətin baxışı ilə ziddiyyət təşkil etmirsə, ən aşağı balla istədiyi vəzifəyə təyin olunur. Həm də namizədin digər vəzifəli şəxs tərəfindən tapşırılması, onun qarantiyası ilə işə qoyulması praktikasını yayırlar. Ona görə ki, belə halda namizədə onu tapşıran şəxs vasitəsilə təzyiq göstərmək üçün rıçaq əldə edirlər. Bu halda bilikli, hazırlıqlı namizədlər kənarda qalır. Azərbaycanın acınacaqlı hallarından biri də budur ki, dünyanın ən yaxşı universitetlərini bitirənlər belə həmin müsahibələrdən kəsilirlər. Bu gün saxta diplom satmaqda ad çıxaran yerli universitetlərin diplomları ilə hətta general vəzifəsində olanlar var. Belələrinin sayı onlarladır.

***- Alternativ vəkil qurumunun yaradılmasına qanun imkan verir. Amma biz belə bir qurumun yaranmasını görmürük. Belə bir qurumun yaradılmasına zəmin yoxdur?***

- İndiki situasiya elədir ki, alternativ vəkillik də heç bir nəticə verən deyil. Belə bir qurumun yaranmasına hakimiyyət imkan verməz. Hakimiyyət Vəkillər Kollegiyasının qanunlar əsasında fəaliyyət göstərməsinə imkan vermir. Qaldı ki, alternativ vəkillər institutunun yaranmasına, ona da imkan verməz. Hakimiyyət nəhayət, fərq etməlidir ki, hazırkı idarəetmə sistemi ilə ölkəni iflic duruma, vətəndaşı hüquqsuz vəziyyətə salıb.

***- Məmurlar var ki, hakimiyyətdə olduqları müddətdə tanınmış vəkillərin əleyhinə çıxışlar edir, addımlar atır, hər cür qanunsuzluqdan çəkinmirlər. Ayaqları büdrədikləri ilk dəqiqələrdəncə məhz həmin daş-qalaq etdikləri vəkillərə üz tuturlar. Praktikanızda belə halla rastlaşmısınız?***

- Əlbəttə ki, belələri çox müraciət edib və indinin özündə də edirlər. Adamlar hakimiyyətdə olanda hər kəsi asıb-kəsirlər. Özləri Azərbaycan hüquq-mühafizə orqanları ilə üz-üzə qalanda ilk üz tutduqları ünvan həmin haqqı deyən vəkillərin qapısı olur. Hərçənd ki, belə ünvanları da hakimiyyət artıq yox etməyə müvəffəq olub. Ona görə də bu gün hakimiyyətdə olan hər bir məmurun özünə də məhz normal vəkillik institutunun varlığı lazımdır.

***- "MTN işi", "Rabitəçilərin işi", "Beynəlxalq Bank işi" üzrə də yəqin ki, sizin özünüzə də müraciət edənlər olur. Vəkillər Kollegiyasından uzaqlaşdırıldığınızı bildirəndə hansı reaksiya ilə üzləşirsiniz?***

- Bəli, tutulan vəzifəli şəxsin yaxınlarının ilk müraciət etdiyi ünvan da mənəm. Deyəndə ki, kollegiyadan uzaqlaşdırılmışam, çaşqın vəziyyətdə kimə müraciət etməyi məsləhət bildiyimi xəbər alırlar. Çox təəssüf olsun ki, məsləhət bildiyim ünvanlar da yoxdur. Olanların da işi o qədər çoxdur ki, sadəcə belə işləri götürüb keyfiyyətli müdafiə qura bilmirlər deyə, işlərdən imtina edirlər.

***- Deyirsiz ki, müraciət edənləri yönəltmək üçün vəkillər yoxdur. Niyə yoxdur? Vəkillərin savadı keyfiyyətli müdafiə qurmağa imkan vermir, yoxsa başqa səbəblər var?***

- Səbəblər başqadır. Vəkillikdə sözünü deyə biləcək, sırf qanuna qulluq edəcək, hakimin, polisin, prokurorun saxtakarlığını dilə gətirəcək vəkil 1-2 nəfərdir. Qalanları isə susmağa üstünlük verirlər. "Gözü çıxmış qardaşlarının aqibəti"ni yaşamaqdan qorxurlar. Məni də, digər sözünü deyən vəkilləri də hay-küylə, ədalətsizcəsinə vəkillikdən qovmaları da ona xidmət edirdi ki, bu, digərlərinə görk olsun. Yəni Aslan İsmayılovu vəkillikdən çıxarıblarsa, onları da çıxara bilərlər. Cavan vəkillərə irad bildirəndə ki, niyə gördüyünüz qanunsuzluqlarla bağlı susursunuz, cavab verirlər ki, siz danışdınız, kollegiyadan uzaqlaşdırdılar. Biz sizin aqibətinizi yaşamaq istəmirik.

***- Necə düşünürsünüz, Vəkillər Kollegiyasının hazırkı duruma düşməsi sədr Azər Tağıyevin öz təşəbbüsüdür?***

- Vəkillər Kollegiyası bu duruma hakimiyyətin istəyi ilə salınıb. Normal seçki olsa, Azər Tağıyev heç vəkillərin 5 faizinin səsini ala bilməz. Bu gün kollegiyada olan hər kəs bilir ki, hakimiyyətdən sifariş gələn kimi Azər Tağıyev ona qarşı ən qanunsuz addımları atmağa hazırdır. Azər Tağıyev sırf indiki hakimiyyətdə kollegiya sədri ola bilər. Qanunlara hörmət bəsləyən hakimiyyətdə Azər Tağıyev sədr ola bilməz.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Şair Mahir Mehdi barədə üç aylıq həbs qərarı

## Ona qarşı iki maddə ilə cinayət işi açılıb



**Yevlax Rayon Məhkəməsində şair Mahir Mehdi barəsində həbs-qətimkan tədbiri seçilib.**

Bu barədə həmin məhkəmədən məlumat verilib. Cinayət Məcəlləsinin 221.1-ci (xuliqanlıq, yəni ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, vətəndaşlar üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlər) və 315.1-ci (hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə) maddələri ilə ittiham olunan M.Mehdi barəsində üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, M.Mehdi fevralın 24-də Yevlax Dəmiryol Stansiyasında saxlanılıb. İttiham aktına əsasən, o, stansiyada sərxoş vəziyyətdə polisə müqavimət göstərib.

YENİ MÜSAVAT
N 49 (6370) 2 mart 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Xocalı soyqırımının 24-cü ildönümündə ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik Dağlıq Qarabağ münaqişəsinin həllinin vaxtı çatdığını demişdi. Əfsus ki, onun bu fikri gəlişigözəl sözlər təəssüratı bağışladı. Ona görə ki, münaqişənin dinc həlli elə Uorlikin də həmsədrliyində təmsil olunduğu Minsk Qrupunun əsas vəzifəsidir və 22 ildir konfliktin həllində onlara heç kim mane olmur. Di gəl ki, "yük" hələ də köhnə yerindədir.**




# Qarabağ təşəbbüsləri Ermənistana ötürülən silahların nişangahında

## Rusiyanın işğalçını sürətlə silahlandırması problemin dinc həllinə bəslənən kövrək ümidləri də basdırmaqdadır; tanınmış rusiyalı ekspertdən ilginc iddia: "Ermənistana verilən silahlar Dağlıq Qarabağa daşınır..."


Andrey Piontkovski

Bu mənada C.Uorlik "Münaqişənin həllinin vaxtı çatıb" yox, "Minsk Qrupu problemi həll eləməkdə acizdir" deyib səbəbləri sadalasaydı, bu, daha səmimi və işin xeyrinə olardı. Nədən ki, ən azı məsələnin dinc nizamlanmasına kimin, necə əngəl yaratdığı bəlli olar, beynəlxalq birlik bundan hali olardı. Yoxsa ki, Azərbaycan xalqı Qarabağ mövzusunda səslənən şablon bəyanatlardan çoxdan bezib.

"Avropa Birliyi Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun olaraq siyasi yolla həllinin tərəfdarıdır". Belə bir şablon bəyanatı isə Avropa Birliyinin (AB) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi **Federika Mogerini** Ermənistan mediasına müsahibəsində deyib.

"Münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq siyasi həlli bu gün heç vaxt olmadığı qədər vacibdir", - deyə o qeyd edib. Mogerininin fikrincə, Dağlıq Qarabağ münaqişəsi zonasında status-kvonun qeyri-sabit olduğu aydın məsələdir. "Ötən il biz təmas xəttində, eləcə də Ermənistan və Azərbaycan sərhədi boyunca zorakılığın artmasını müşahidə edirdik. Ağır silahlardan istifadə olunurdu, hədəfə isə mülki əhali düşürdü" - əlavə edib Avropa Birliyi rəsmisi.

Doğrudur, insaf naminə vurğulanmalıdır ki, Avropa Birliyinin əsas orqanı - Avropa Parlamenti bir neçə il öncə Ermənistanı işğalçı ölkə kimi tanıyan qətnamə qəbul edib. Fəqət, bundan uzağa gedilməyib - həm Minsk Qrupu həmsədrləri AB-nin, eləcə də AŞ PA-nın vasitəçilik təşəbbüslərinə qısqanc yanaşaraq buna mane olublar, həm də Rusiya amili buna imkan verməyib.

Federiko Mogerininin Bakıda, qaz sammiti çərçivəsində Qarabağa dair verdiyi açıqlama isə daha əhəmiyyətli sayıla bilər. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşdən sonra keçirdiyi mətbuat konfransında AB yetkilsi qurumun ölkəmizin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşdığını bildirib, status-kvonun qəbuledilməz sayıb. "Biz Dağlıq Qarabağın müstəqilliyini tanımırıq. Bu münaqişənin həlli bizim üçün prioritet olaraq qalır. Biz həmsədrlərə dəstək olmağa hazırıq. AB sülh danışıqlarının aparılmasına tərəfdardır və münaqişənin hərbi yolla həllini görmürük. Çalışmalıyıq ki, hər iki tərəfi sülh prosesinə mane olan çıxışlardan, hərəkətlərdən çəkindirək. AB sülhə yönəlmiş fəaliyyətlərə dəstək verəcək. Bu sahədə xüsusi elçimiz Helbert Salberlə işə təkan verəcəyik. Münaqişə tərəflərinin yaxınlaşması üçün əlimizdən gələni edəcəyik" - deyib Mogerini.

***

Ancaq yenə əfsuslar olsun ki, son zamanlar işğalçı Ermənistanın Rusiya tərəfindən sürətlə silahlandırılması bu kimi bütün pozitiv təşəbbüsləri, problemin dinc yolla həllinə bəslənən olan-qalan ümidləri də basdırır. Çünki bu addımlar bir yandan təcavüzkarın kompromissiz mövqe tutmasına yardımçı olursa, başqa yandan ötürülən silahların Dağlıq Qarabağ münaqişə zonasında yerləşdirilməsindən dolayı müharibə risklərini artırır.

**Xüsusən də şimal qonşumuzun işğalçı ölkəyə 200 milyon dollar dəyərində *(əslində 1 milyardlıq silahdan söhbət gedir)* yeni partiya müasir silah-sursat göndərməyə hazırlaşması ciddi narahatlıq doğurmaqdadır. Bəs Kreml vaxtaşırı həm Azərbaycana, həm də işğalçı Ermənistana silah verməklə daha hansı hədəflər güdür?**

"Rusiyanın Qafqaz siyasətində, məxsusən də Dağlıq Qarabağla bağlı siyasətində yeni heç nə yoxdur. Moskva bu münaqişənin həll edilməmiş qalmasından həm Bakıya, həm də İrəvana təzyiq rıçaqlarına malik olması üçün, o cümlədən vaxtaşırı şəkildə Azərbaycana və Ermənistana silah satmaqla istifadə edir". Bunu tanınmış rusiyalı siyasi xadim və ekspert, "Həmrəylik" hərəkatı Siyasi Şurası Federal Bürosunun sabiq üzvü, Rusiya müxalifəti Koordinasiya Şurasının keçmş üzvü **Andrey Piontkovski** vesti.az saytına müsahibəsində söyləyib.

**Onun sözlərinə görə, Rusiyanın ondan silah-sursat alması üçün Ermənistana kredit ayırmasında da yeni heç bir şey yoxdur - hansına ki, Bakı haqlı olaraq etiraz notası ilə cavab verib:** "Rəsmi Bakının etiraz notası ilk növbədə onun nümayişidir ki, görünür Azərbaycan rəhbərliyində təkcə silah krediti ilə bağlı yox, həm də ağırlaşan Rusiya-Türkiyə münasibətlərinin yaradığı situasiyaya ölkənin düşməsindən dolayı narahatlıq artıb".

**Ermənistana verilən müasir silah-sursatın Dağlıq Qarabağa ötürülməsinin mümkünlüyünə gəlincə, Piontkovskiyə görə, "yəqin ki, bu da olacaq". Analitik bu xüsusda Rusiya prezidenti Vladimir Putinin Bakıya son telefon zənglərinin Moskvanın Ermənistana 200 milyon dollarlıq silah ötürməyə başlaması ilə bağlı Azərbaycanın Rusiyaya nota verməsindən sonraya təsadüf etməsinə də diqqət çəkib.**

"Ermənistanın aldığı silahların sonrakı hərəkət marşrutlarına heç kim nəzarət eləmir. Mən proqnoz eləməkdə çətinlik çəkirəm - Azərbaycan bundan sonra da Rusiyadan silah alacaq, ya yox, ancaq Bakının notası - onun nümayişidir ki, Azərbaycan daha özünü Moskvanın həqiqətən də onun strateji tərəfdaşı olmasi kimi aparmaq niyyətində deyil. Prinsipcə, Bakı Moskvadan yeni heç nə öyrənə bilməyib. Amma uzun müddət bu xoşagəlməz gerçəkliklər strateji tərəfdaşlığın çuxası altında gizlədilib", - deyə o , fikrini tamamlayıb.

***

Maraqlı məqamlardan biri də təcavüzkar Ermənistanın Rusiya tərəfindən sürətlə silahlanmasına digər iki həmsədr dövlətin - ABŞ və Fransanın susqun reaksiya verməsidir. Deməli, konfliktin dinc həllinə Qərbdə bir elə maraq yoxdur - əgər ümumiyyətlə, Qarabağ məsələsinə maraq varsa. Bu üzdən də yaxın perspektivdə münaqişənin nizamlanmasında təkcə Rusiya tərəfindən deyil, elə Avropa və ABŞ-dan da sanballı təşəbbüsün olacağını gözləməyə dəymir.

## Dilqəm Əsgərov işğalçı rejimdən əfv istəmədi



**İşğal altındakı Kəlbəcər rayonu ərazisində girov götürülmüş və qanunsuz məhkəmənin qərarı ilə ömürlük həbsə məhkum edilmiş azərbaycanlı Dilqəm Əsgərov separatçı rejimin rəhbərliyindən əfv istəməyib. Bu haqda Ermənistan mediası xəbər yayıb.**

Xatırladaq ki, 2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər. Digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.

Həmin ilin dekabrında separatçı rejimin "məhkəməsi" D.Əsgərov ömürlük, Ş. Quliyevin isə 22 il müddətinə azadlıqdan məhrum edilməsi barədə qondarma hökm çıxarıb. Keçən il də əfv barədə Dilqəm Əsgərova müraciət olunmasına baxmayaraq, həmyerlimiz bundan imtina etmiş və belə bir arzusunun olmadığını bildirmişdi.

Girovlarla bağlı bir çox beynəlxalq quruma, o cümlədən Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edilib. Lakin hələlik bu ərizəyə heç bir cavab gəlməyib.

Kəlbəcər rayonu ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülən Dilqəm Əsgərovun həyat yoldaşı Firuzə Əsgərova, oğlu Kürdoğlu Əsgərov və Şahbaz Quliyevin həyat yoldaşı Albina Veselova Rusiya prezidenti Vladimir Putinə və Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxinə müraciət ediblər. Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndəliyi müntəzəm olaraq girovlara baş çəkir. Onların məktublarını ailələrinə çatdırır. Dilqəm və Şahbaz adətən məktublarında normal olduqlarını qeyd edirlər. Lakin bəzi hallarda məktubda bəzi cümlələr qaralanmış formada olur.




# "Donuz qripi" bazarlarda donuz əti satışını...artırıb

## Satıcı: "Ruslar və gürcülərlə yanaşı, öz camaatımız da donuz əti alır"

## "Bu qripin adını "uzunqulaq qripi" qoysaydılar, bəlkə camaat eşşək əti vurulan kolbasaları yeməkdən imtina edərdi..."



**Son günlər Azərbaycanda da "donuz qripi" təhlükəsi aktuallaşıb. 2016-cı ilin ilk ayından bu günə qədər ölkədə 550 nəfər "donuz qripi"nə, başqa sözlə, H1N1 virusuna yoluxma şübhəsi ilə müayinə olunub. Bu barədə mətbuata məlumat verən Səhiyyə Nazirliyinin Respublika Taun Əleyhinə Stansiyasının şöbə müdiri Rita İsmayılova deyib ki, ölkədə epidemik qriplə bağlı vəziyyət stabildir və bu virusa qarşı profilaktik nəzarət tədbirləri, dezinfeksiya işləri davam etdirilir.**

Bəs görəsən, "donuz qripi"nin gündəmə gəlməsi bazarlarda donuz ətinə olan tələbatı azaldıbmı? Nəzərə alsaq ki, "quş qripi" yayıldığı dövrlərdə əhali kütləvi şəkildə quş əti və yumurta məhsullarından imtina edirdi. Səbəb isə bu virusun heyvandan insana keçə bilməsi idi. "Donuz qripi" necə, anoloji vəziyyətin yaranmasına səbəb olubmu? Ümumiyyətlə, "donuz qripi"nin adıçəkilən heyvanla ələqəsi varmı, yoxsa sadəcə, simvolik bir ad kimi bu xəstəliyə verilib?

"Yeni Müsavat"ın müxbiri bu suallara aydınlıq gətirmək üçün paytaxt bazarlarında donuz əti satılan məntəqələrə baş çəkib və satıcılarla həmsöhbət olub. Qeyd edək ki, paytaxtın əksər bazarlarında donuz əti satışı həyata keçirilir.

### "Gündə 80-120 kiloqram donuz əti satırıq"

"8-ci kilometr" bazarında donuz əti satışı ilə məşğul olan Oqtay Nəsibov deyir ki, donuz ətinə tələbat azalmayıb, əksinə, daha çox kafe və restoranlardan sifarişlər gəlir: "Ruslarla və gürcülərlə yanaşı, öz camaatımız da donuz əti alır. Müştərilərimizin əksəriyyəti gürcülərdir".

**Satıcı deyir ki, donuz qripi haqqında gəzən söhbətlər onların bazarına təsir etməyib:** "Son günlər yenidən "donuz qripi" yayılıb xəbərləri eşidirik. Camaat arasında panika yaratmaq istəyirlər. Azərbaycanda "donuz qripi"ndən indiyədək ölən olubmu? "Donuz qripi"nin donuz ətinə aidiyyəti yoxdur. Sadəcə, hansısa bir xəstəliyin adına "donuz qripi" adını qoyublar, lakin donuzdan yoluxan xəstəlik deyil. Maraqlıdır ki, virusun adını niyə "donuz qripi" qoyublar? Bu qripin adını "uzunqulaq qripi" qoysalar daha yaxşı olardı. Bəlkə camaat eşşək əti vurulan kolbasaları yeməkdən imtina edərdi..."

**Həmsöhbətimin fikrincə, donuz ətindən müxtəlif növ yeməklər bişirmək olur və mal-qoyun ətindən daha dadlıdır:** "Hərdən evdə qızartmasını edirəm. Öz salasında kartofla birlikdə çox ləzzətli olur. Kababı isə əvəzolunmazdır. Gündə 80-120 kiloqram donuz əti satırıq. 1 kiloqramı 6 manatdır. Xaçmaz rayonunda donuzçuluq daha yaxşı inkişaf edib. Diri heyvanı, kiloqramı 4-4.5 manatdan alırıq. Etiraf edim ki, mal-qoyun ətindən daha çox tələbat var. Lakin son zamanlar alıcılıq azalıb. Bu isə maddiyyatdan irəli gəlir".

**Satıcının sözlərinə görə, mal-qoyundan fərqli olaraq, donuzun dişi və ya erkək olmasına görə kəsilmə qaydaları da fərqli olur:** "Erkək donuz əti yemək qadağandır. Yalnız müəyyən prosedurlardan sonra erkək donuz kəsilə bilər. Əks halda, ətindən dəhşətli qoxu gəlir. Hətta zəhərlənmə də ola bilər. Kəsiləcək erkək donuz 4-5 ay öncədən axtalanır, yəni xayaları kəsilir. Bundan sonra ən azı 4-5 ay ötməlidir ki, erkək donuzun əti təmiz olsun. Dişi donuzun əti isə istənilən vaxt yeyilə bilər. Hər halda, erkək donuz ətindən istifadə daha risklidir. Restoranlarda isə adətən müştəriləri aldadırlar, çöl qabanı adı ilə donuz əti satırlar".

### Donuzun kəsilmə qaydası

**Həmsöhbətim deyir ki, donuz əti dinə görə haram olsa da, tələbat kifayət qədərdir:** "Donuzu dana kimi kəsmək mümkün deyil. Yəni qiblə məsələsi yoxdur. Bir neçə üsulla kəsirlər. Bir yolu odur ki, şişi qızıdırıb ürəyinə batırırlar. Digəri isə başından ağır çəkiclə vurub, keyləşdirib kəsirlər. Quranda donuz əti haram buyurulur. Lakin illərdir ki, donuz əti satıram. Heç kimə məcbur satmırıq. Nə də kiməsə alması üçün təbliğ eləyirik. Yeganə qazanc yerimiz donuz əti satışından gəlir".

### "Donuz qripi"nin donuz ətinə aidiyyəti yoxdur

**Tibb elmləri doktoru Adil Qeybulla da "donuz qripi"nin donuz ətindən deyil, hava-damcı yolu ilə keçdiyini bildirdi:** ""Donuz qripi" hava-damcı yolu ilə yayılan infeksiyadır. İlk dəfə olaraq 2008-ci ildə Meksikada insanlar arasında aşkarlanıb. Bu xəstəlik əvvəllər donuzlarda olduğu üçün "donuz qripi" adlanırdı. Ancaq bu gün insanlar arasında hava-damcı yolu ilə yayılan infeksiyalardan biridir. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təbii çiçək xüsusi raportla karantin infeksiyalar sırasından çıxarıldıqdan sonra qrip 4 karantin infeksiyadan biri sayıldı. Yəni vəba, taun, sarı qızdırma və qrip. Ona görə də qripin bu növü çox təhlükəlidir və narahatçılığa da dəyər. Bu səbəbdən də infeksiyanın yerində lokallaşdırılması təkcə ölkənin problemi deyil, ümumilikdə Ümumdünya Səhiyyə Təşkilatının marağında olan məsələdir".

**A.Qeybulla "donuz qripi"nin donuz ətinə heç bir aidiyyəti olmadığını dedi:** "Bu, xəstəliyə qoyulan simvolik bir addır. Hazırda bu ad mənşəyinə o qədər də uyğun bir ad deyil. Həmin virus yalnız hava-damcı yolu ilə keçir. Qrip əleyhinə olan vaksinlərlə bu xəstəliyin qarşısını almaq mümkün deyil. Hazırda dünya çapında "donuz qripi" əleyhinə vaksinlərin hazırlanması üçün ciddi iş gedir. Lakin hər bir ölkə qabaqlayıcı profilaktik tədbirlər görməlidir, şübhəli şəxslər transsərhəd zonalarında saxlanılmalıdır".

❑ **Məğrur MƏRD**
❑ **Fotolar müəllifindir**

# Şüvəlanda xeyirxah aksiya- pulsuz geyim paylanılır

## "Yeni Müsavat"ın müxbiri də mağazaya baş çəkib; bir müddət sonra imkansızlara pulsuz məişət əşyaları da veriləcək

**Bakıda qeyri-adi xeyriyyə kampaniyasına start verilib. Şüvəlan qəsəbəsi, Nizami küçəsində yerləşən mağaza imkansız insanlara pulsuz pal-paltar, müxtəlif geyim əşyaları təqdim edir. Bu xeyriyyə kampaniyası bir qrup yardımsevər tərəfindən təşkil olunub və "Ehtiyacın varsa, götür, ehtiyacın yoxdursa, as" şüarı altında tam təmənnasız olaraq yoxsul insanlar üçün fəaliyyət göstərir.**

Artıq 1 həftədir ki, qəsəbənin mərkəzi küçəsində yerləşən bu mağazaya insan axını var. Mağaza hər gün günorta saat 14:00-dan axşam saat 17:00-dək fəaliyyət göstərir. Bu vaxt ərzində həm müraciət edən imkansız insanlara paltar götürmək imkanı yaradılır, həm də xeyirxah insanların gətirdikləri paltarlar qəbul edilir.

"Yeni Müsavat"ın müxbiri də mağazaya baş çəkib. Biz ərazidə olduğumuz zaman mağazanın qapısı önündə qələbəlik yaşanırdı. İnsanlar içəri növbə ilə buraxıldığından gələnlərin əksəriyyəti qapı önündə gözləməli olur və bundan narazılıq edirdilər.

Şüvəlan sakinləri deyir ki, hər gün günorta saatlarında obyektin qarşısında onlarla növbəsini gözləyən adam görmək mümkündür. Aksiyadan yararlanmaq istəyənlər təkcə Şüvəlan qəsəbəsinin əhalisi deyil və digər qonşu qəsəbələrdən, hətta rayonlardan da gələnlər var. Hər kəs ehtiyacı olan paltarı götürsə də, bəzən daha çox paltar götürmək istəyənlərə də rast gəlinir. Təşkilatçılar deyir ki, belə hallarda insanların qəlbini qırmaq istəmədikləri üçün maksimum anlayışlı bir şəkildə onları başa salırlar.

**Təşkilatçı Fuad Əliyev xeyriyyə aksiyasının bir həftədir davam etdiyini və insanların kütləvi şəkildə axın etdiyini dedi:** "Bir həftədir ki, aksiyanı təşkil etmişik. Əslində ideyanı Türkiyədən götürmüşük. Bu xeyirxah işi çox bəyəndik və bir neçə dost əl-ələ verib, bu cür xeyriyyə aksiyalarını təşkil etməyi qərara gəldik. Xeyirxah insanlar sağ olsunlar ki, aksiyaya dəstək verirlər. Paltarların saxlanılması üçün bu mağazanı bizə bir xeyirxah şəxs təmənnasız verib. Bizim məqsədimiz kimdənsə pul almaq və yaxud maddiyyat güdmək deyil. Sadəcə, insanlardan xahişimiz odur ki, istifadə etmədikləri geyim əşyalarını, paltarları buraya gətirsinlər. Bizim öhdəmizə düşən vəzifə isə əzik və çirkli paltarları öz hesabımıza ütüləyib və təmizləyib imkansız ailələrə çatdırmaqdır. Yaxşı olar ki, paltarları təmiz və ütülənmiş halda gətirsinlər".

**Təşkilatçı xeyriyyə aksiyasında paltar fırıldaqçılarına rast gəldiklərini də dedi:** "Ehtiyacın varsa, götür, ehtiyacın yoxdursa, as" şüarı altında təşkil olunan xeyriyyə aksiyasında bəzən anlaşılmazlıqlar da olur. Biz də insanları başa düşürük. Lakin istənilən paltar və yaxud geyim əşyası bərabər şəkildə paylaşılmalıdır. Heç kimə fərq qoyulmur. Gətirilən paltarları bərabər şəkildə bölüşdürürük. Lakin bununla bəzi fırıldaqçılar da öz əməlindən geri qalmır. Bir şəxs bir neçə dəfə geyim əşyası götürmək istəyir. Bu halların qarşısını almaq üçün siyahı tuturuq. Hər kəsə nömrələr paylanılır və onun qarşılığında paltar verilir və dərhal nömrə həmin şəxsdən alınır. Bundan əlavə, texnika və məişət əşyaları da gətirənlər olur. Lakin o barədə hələ ki planlaşdırma aparmamışıq. Qısa zamanda bu kimi əşyaların siyahılaşdırma prosesinə başlayacağıq. Bunun üçün də təşkilatçılığı gücləndirmək və böyütmək lazımdır. Məişət avadanlıqları üçün evlərə gedib yoxlamaq lazımdır. Bunun üçün bir neçə işçi heyəti götürmək lazımdır. Lakin təmənnasız olaraq insanları cəlb etmək mümkün deyil. İnanırıq ki, hökumətimiz də bu işlərdə bizə yardım edəcək. Hazırda 5-6 nəfərlə bu işləri davam etdiririk. Çox yorğun və gərgin işdir. Hər gün iş vaxtımızdan bir neçə saat ayırıb bu işə sərf edirik. Zəhmət tələb edən iş olsa da, çalışırıq ki, imkanı olmayan insanlara əlimizdən gələn yaxşılığı, köməkliyi göstərək. Hətta xaricdən də aksiyaya dəstək olmaq istəyənlər var. Bu yaxınlarda xeyli sayda kişi, qadın, uşaq geyimləri göndərəcəklər. Allah yardım edən hər kəsdən razı olsun".







Bu mağazaya pulsuz paltar götürmək üçün gələnlər mağazanın qarşısında toplaşaraq, növbələrinin çatmasını gözləyirlər. İçəridə olanlar isə həvəslə paltarlara baxır, kimi uşağına, kimi də özünə paltar seçir. Vitrində ayaqqabı, aksessuarlar, bəzək əşyaları da var. Lakin mağazanın qapısı önündəki qələbəlik bəzən təşkilatçılar üçün problem də yaşadır. Belə ki, səs-küy artdıqda icra nümayəndələri müdaxilə edib irad bildirməli olurlar. Bu səbəbdən təşkilatçılar ən yoxsul, geyim almağa belə imkanı olmayan insanların gəlməsini xahiş edir.

❑ **Məğrur MƏRD**
❑ **Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 49 (6370) 2 mart 2016

**Azərbaycanın baş naziri Artur Rəsi-zadə hər zaman medianın gündəmində, müzakirəsində olan siyasi personadır. Səsini cəmi bir-iki dəfə eşitməyimiz, irəliləyən yaşına baxmayaraq hələ də kreslosu ilə vidalaşmaması medianın tənqid etdiyi məqamlardandır. Nəinki tənqidçi media, zaman-zaman hökumət məmurları, deputatlar da bununla bağlı dolayısı ilə tənqidlərini səsləndirirlər. Məsələn, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, deputat Hadi Rəcəbli "pensiya yaşı çatıb gününü keçirən məmurlara "xüdahafiz" deməliyik" sözləri ilə əslində baş nazirin "bostanına daş atıb".**

**Məlumdur ki, A.Rəsi-zadənin təqaüd yaşından 15 ildən çox keçib. Bununla belə, onun daim vəzifə başında olması, gündəlik iş qrafikinə sadiq qalması tabeliyində olan işçilər tərəfindən verilən açıqlamalarda yer alır. Əslində baş nazirin fəaliyyət sferasına nələr daxildir, nələri etməlidir?**



# Baş nazirin personası

## Təqaüd yaşını 15 il öncə qeyd edən Artur Rəsi-zadə barədə bilinməyənlər



### Pənah Hüseyn: "Nazirlər Kabinetini icra hakimiyyətinin bir qolu da adlandırmaq olar"

Konstitusiyanın 109-cu maddəsinə əsasən, prezident Milli Məclisin razılığı ilə baş naziri vəzifəyə təyin edir və vəzifədən azad edir. Konstitusiyanın 115-ci maddəsinə əsasən, Nazirlər Kabinetinin tərkibinə baş nazir, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.

**Konstitusiyanın 121-ci maddəsinə əsasən:**

".... Azərbaycan Respublikasının baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir".

Konstitusiyada baş nazirin yaş həddi tam göstərilməyib. "Yaşı 30-dan aşağı olmayan" qeyd edilsə də, maksimal hədd barədə heç nə yazılmayıb. Bununla belə, Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri **Akif Əli** dəfələrlə açıqlamasında baş nazirin aktiv iş qrafiki olduğunu deyib.

**"Yeni Müsavat"a müsahibəsində sözügedən məsələ ilə bağlı dediklərinə diqqət edək:** "Mən o zaman da deyirdim, indi də deyirəm: o jurnalistlər ki, yazırdılar Artur Rəsi-zadə işə çıxmır, səhhəti filandır, mən onlara deyirdim ki, səhər saat 9-a 15 dəqiqə qalmış Nazirlər Kabinetinin qarşısına gəlin və baş nazirin kortejinin içəri girdiyini özünüz görün. Axşam da saat 7-də işdən getdiyi vaxtdır. Lakin gəlmədilər, baxmadılar. "Xəstədir", "işə gəlmir", "yoxdur" deyilir ki, bunların hamısı boş söhbətdir. Oturub öz yerində, öz işi ilə məşğuldur, prezidentin tapşırıqlarını icra edir. Hərə bir şey deyir, müəyyən məqsəd güdən, təmənnalı, məqsədli adamlar var. Yaxud sadəcə elə-belə reytingini qaldırmaq istəyən mətbu orqanlar var. Artur Rəsi-zadə tamamilə sağlam adamdır, bütün təfəkkürü, idrakı, şüuru, yaddaşı çox cavandan da möhkəmdir və heç bir problemi də yoxdur. Şəxsən mən problem görməmişəm və işində davam edir. Allah nə qədər məsləhət bilsə, o qədər də davam edəcək".

Bu arada onu da xatırladaq ki, baş nazirin aylıq məvacibi 2406 manatdır. Baş nazirin 1-ci müavini 2125 manat, müavinləri isə 2031 manat maaş alırlar.

***

**AXC hakimiyyəti dönəmində baş nazir vəzifəsini icra etmiş Pənah Hüseyn isə mövzuya fərqli prizmadan baxdı. Dedi ki, əslində baş nazirin hüquq və səlahiyyətləri qanunla tənzimlənir. Bu, Azərbaycanın Konstitusiyası və Nazirlər Kabineti haqqında qanunda öz əksini tapıb:** "Formal hüquqi baxımdan yanaşsaq, Azərbaycanda baş nazirin səlahiyyətləri qanunvericilikdə xeyli məhduddur. Bu, Azərbaycanda dövlət idarəçiliyinin qüsurlu cəhətlərindən biridir. Ona görə də zaman-zaman hökumətin funksiyasının, səlahiyyətlərinin artırılmasını tələb edib, bunun faydalı olacağını deyənlər olur".

**"Nazirlər Kabineti müstəqil bir hakimiyyət qolu deyil" deyən P.Hüseynin sözlərinə görə, onu icra hakimiyyətinin bir qolu da adlandırmaq olar. Müsahibimiz hesab edir ki, Azərbaycanda prezidentin səlahiyyətləri o qədərdir ki, Nazirlər Kabineti müstəqil siyasi institut kimi şərtidir:** "Bu, parlament tərəfindən təşkil olunan bir hökumət deyil. Hesabatlı bir hökumət olması daha məqsədəuyğun olar. Nazirlər Kabineti indiki məhdud funksional çərçivədə də xeyli məsələləri həll etməlidir. Hökumət anlayışı var, onun beynəlxalq aləmdə təcrübədən keçirilən tərəfləri var. Baş idarənin rəhbərliyi də özünün vəzifəsini həyata keçirmək üçün məsuliyyət daşıyır. İndiki çərçivədə də baş nazirin kifayət qədər işləməsi üçün sahələr, istiqamətlər mövcuddur. Bu zaman da onun fiziki cəhətdən sağlam olması tələb olunandır. Azərbaycanda indiki siyasi rejim avtoritar rejimdir. O baxımdan da avtonom baş nazirə ehtiyacları yoxdur, hakimiyyəti tam qane edir. Daha dəqiq desək, xüsusi ambisiyası olmayan bir şəxsin baş nazir olması qaneedici sayılır. Mühüm cəhətlərdən biri budur ki, baş nazir prezidentdən sonra ikinci şəxsdir. Prezidentdən sonra səlahiyyətlər baş nazirə keçir. Bu baxımdan da həmin postda inanılmamış və xatalı adamın olması məqsədəuyğun deyil".

**P.Hüseyn hesab edir ki, hazırda Azərbaycanda yeni bir hökumətin olmasına ehtiyac var. Məmurların dəyişilməzliyi, 15-20 il boyunca bir məmurun eyni vəzifədə olması tənqid olunan məqamlardandır:** "Yaş amili də mühüm əhəmiyyətli məsələdir. Son dövrlərdə böhran vəziyyətdə ictimai rəydə də ciddi tələblər qoyulub. Bunlardan biri də yeni hökumətin yaradılması ilə bağlıdır".

"Yeni Müsavat" xatırladır ki, qonşu ölkələrdə baş nazirlərin məvacibi də yetərində şəffafdır. Bununla bağlı xüsusi saytlar var və vətəndaş ora daxil olub, baş nazirin, hökumətin ayrı-ayrı məmurlarının yenilənən məvacib durumu ilə tanış ola bilər. Məsələn, hazırda Türkiyədə baş nazirin məvacibi 16.000 TL-dir. 2015 və 2014-cü illərdə bu rəqəm 14.500 TL olub. Baş nazirin məvacibi hər il çıxarılan büdcə qanunu ilə prezident fonduna bağlı olaraq müəyyənləşdirilir.

Ukrayna baş naziri Arseni Yatsenyukun maaşı isə həmkarlarından qat-qat aşağıdır. 2015-ci il yanvar ayında Ukrayna baş naziri Arseni Yatsenyuka 8 526 qrivna (320 dollar) əmək haqqı alıb. Ukrayna Nazirlər Kabinetinin mətbuat xidməti bu informasiyanı təsdiqləyib. Xəbərdə qeyd edilir ki, baş nazirin maaşı bundan da aşağı düşə bilər. Baş nazirin bu qədər aşağı maaşının alması ilə ölkədə gedən münaqişənin davam etməsi göstərilir. Belə ki, dövlət büdcəsi demək olar ki, yox səviyyəsindədir.

❑ **Sevinc TELMANQIZI**

# Hökumət martın 15-də hesabat verəcək

## Baş nazir Artur Rəsi-zadə deputatlar qarşısında hökumətin illik fəaliyyəti barədə danışacaq

**Martın 1-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında "Məhkəmələrin fəaliyyəti haqqında informasiya əldə etmək barədə" qanun layihəsi ilə bağlı növbəti müzakirələr aparılıb.**

Adıçəkilən komitənin sədri Əli Hüseynli qanun layihəsi haqqında məlumat verərək bildirib ki, son dövrlərdə məhkəmə hüququ islahatları, məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Onun sözlərinə görə, məhkəmələrin fəaliyyəti haqqında informasiya əldə edilməsi, habelə məhkəmələrin hakimiyyətin bir qolu kimi cəmiyyət üçün daha açıq olması məsələləri daim gündəmdə olub. Komitə sədri eyni zamanda deyib ki, bu sahədə problemlər də mövcuddur. Ə.Hüseynlinin dediyinə görə, problemlərin bir çoxu məhkəmənin fəaliyyətinin spesifikliyi ilə bağlıdır: "Məhkəmə orqanlarının fəaliyyəti, məhkəmə prosesi, onun haqqında informasiya əldə olunması cəmiyyət üçün nə qədər vacibdirsə, bu informasiyanın obyektiv olması da bir o qədər əhəmiyyətlidir".

Ə.Hüseynli bu sahədə mövcud olan bir sıra ziddiyyətli məsələlərin həlli üçün belə bir qanun layihəsinin qəbul olunmasının vacibliyini vurğulayıb. Daha sonra o bildirib ki, Azərbaycan prezidentinin qanunvericilik təşəbbüsü əsasında parlamentə daxil olan qanun layihəsi 5 fəsil, 25 maddədən ibarətdir. Sənəd məhkəmələrin fəaliyyəti barədə informasiya əldə etməyin əsas prinsiplərini, vətəndaşların məhkəmələrin fəaliyyəti ilə bağlı hər hansı bir informasiya əldə etməsinin mümkünlüyünü və şəffaflığını tənzimləyəcək. Qanun layihəsində məhkəmələrin fəaliyyəti ilə bağlı informasiyanın əldə olunmasının təşkili, məlumatların verilmə forması, istifadəçilərin hüquqları, informasiya ilə təmin edilmə sahəsində əsas tələblər, arxiv fondları ilə tanışlıq, sorğu verilməsi, informasiyanın dərc edilməsi və digər bu kimi əsas prinsiplər əksini tapıb. Gün.az-ın məlumatına görə, müzakirələrdə çıxış edən Ali Məhkəmənin sədr müavini Hikmət Mirzəyev və deputatlar qanun layihəsi barədə fikirlərini bildiriblər.

Qanun layihəsi müzakirələrdən sonra MM-in plenar iclasına tövsiyə edilib. Qeyd edək ki, parlament martın 4-də toplaşacaq.

Azərbaycan Nazirlər Kabinetinin 2015-ci il üzrə fəaliyyəti haqqında hesabatı isə martın 15-də Milli Məclisdə dinləniləcək. Parlamentdən APA-ya verilən məlumata görə, həmin gün keçiriləcək plenar iclasda baş nazir Artur Rəsi-zadə deputatlar qarşısında hökumətin illik fəaliyyəti barədə hesabat verəcək, sonra hesabat müzakirə olunacaq. Hesabatın bu həftənin sonuna kimi əvvəlcədən tanışlıq üçün Milli Məclisə təqdim olunaraq deputatlara paylanılması nəzərdə tutulub.

❑ **ELŞAD**

YENİ MÜSAVAT
N 49 (6370) 2 mart 2016

# "Made in Azerbaijan" dünya bazarında niyə tanına bilmir?

**Azad İstehlakçılar Birliyinin sədri:** "Bu malları dünyada təbliğ etmək mexanizmi yox dərəcəsindədir"

**İqtisadçı ekspert:** "Yerli istehsal olan fındıq Avropa ölkəsinə Türkiyə brendləri altında çıxarılır"

**Məhsul alarkən ilk növbədə onun hansı ölkədə istehsal olunmasına baxırıq. Azərbaycan bazarında bir çox ölkələrin brendlərinə rast gəlsək də, "Made in Azerbaijcan" yazılan hər hansısa bir məhsula dünya bazarında az rast gəlinir. Halbuki Azərbaycanı dünya bazarında təmsil edə biləcək çoxlu sayda məhsullar var. Bəs ölkəmizin brendinin dünya bazarında tanınmamasına səbəb nədir?**




**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bu məsələdə maneələr olduğunu dedi: "ABŞ-ın İnkişaf Agentliyi (USAID) Azərbaycanda 5 illik layihə həyata keçirdi. Bu layihə Azərbaycan mallarının rəqabətə davamlılıq layihəsi idi. USAID istehlakçıların bizə inamını nəzərə alaraq 2011-ci ildə, yəni layihənin sonunda bizə müraciət etdi və dedi ki, gəlin Azərbaycan istehlakçılarının qida təhlükəsizliyi nişanını təsis edib bunu dünyaya yayaq. Biz 2011-ci ildə Azərbaycan istehlakçılarının qida təhlükəsizliyi nişanını dövlət qeydiyyatına aldıq. Biz bunu 120 ölkədə təbliğ etmək məqsədi güdürdük. USAID əməkdaşlarımıza təhlükəsiz qida istehsal edən müəssisələri necə seçmək, necə qiymətləndirmək mövzusunda böyük bir treninq keçdi. 2011-ci ildən bəri keçən bir müddətdə biz altı müəssisəyə bu nişanı şamil edə bildik. Biz bu müəssisələrin dünyanın 120 ölkəsində brendlərini təbliğ etmək üçün iş apardıq. Təəssüf ki, bir çox dövlət orqanlarının məmurları üzdə buna dəstək versələr də, altda bizim bu işimizə ciddi maneçilik törətdilər. Mən Yeni Zelandiyada olarkən orada "Aznar"ın, bir də Şirvanın nar şirələrini gördüm. Kanadada isə Azərbaycanın nar şərabını görmüşəm. Ancaq bunlar həddindən artıq azdır. Azərbaycanda İqtisadiyyat Nazirliyinin yaratdığı AZTROMO adlı şirkət fəaliyyət göstərir. Bu şirkət Azərbaycan mallarının dünyada təbliği ilə məşğul olmalıdır. Azad İstehlakçılar Birliyi istədi ki, AZTROMA ilə əməkdaşlıq qursun və təmənnasız olaraq Azərbaycan mallarının xaricdə təbliğ olması üçün iş aparsın. Lakin AZTROMA, sadəcə olaraq, bir görüş keçirdi, vəssalam. Bu görüşdən başqa bir addım atmadı".

**E. Hüseynov dövlət şərait yaratsa, qurumlarının Azərbaycan brendini dünyaya tanıtmaq istiqamətində iş görə biləcəklərini dedi:** "Azərbaycanda keyfiyyəti yüksək olan kəlağayı və başqa məhsullar istehsal olunur. Ancaq bu malları dünyada təbliğ etmək mexanizmi yox dərəcəsindədir. Bunun da səbəbi xaricdən mal gətirən böyük qurumlardır. Onlar istəmirlər ki, Azərbaycan malları xaricə çıxsın. Mən "Sədərək" bazarına gedəndə deyirəm ki, yazıq Azərbaycan xalqının pulunun hamısı xarici ölkələrin, o cümlədən Türkiyənin mallarına gedir. Dövlət qurumlarının bəzi məmurlarının bizə maneçiliyi olmasa, Azad İstehlakçılar Birliyi Azərbaycan brendini satmaq üçün çox səmərəli iş görə bilər. Bəzi dövlət qurumları gedib müəssisələrə deyir ki, onlar ictimai təşkilatdır, əməkdaşlıq etməyin. Halbuki biz hər şeyi təmənnasız edirik".

**İqtisadçı ekspert Rəşad Həsənov isə Azərbaycan brendinin dünyaya çıxa bilməməsinin obyektiv və subyektiv səbəbləri olduğunu bildirdi:** "Azərbaycan dünya bazarında 90-cı illərdən sonra təmsil olunmağa başladı. 90-cı ildən sonra yeni prinsiplərə söykənən, bazar iqtisadiyyatına əsaslanan, rəqabət prinsiplərini özündə birləşdirməyə çalışan bir iqtisadi model formalaşması prosesi başladı. Bu dövrdə də Azərbaycanın yararlanacağı ən münasib sektorlarından biri neft sektoru idi. Neft sektoru uzunmüddətli bir dövrdə Azərbaycanda müəyyən infrastrukturun inkişafı baxımında müsbət nəticələrə gətirib çıxarsa da, bununla paralel olaraq qeyri-neft sektorunun inkişafına mənfi təsir etdi. Yerli istehsalçıların böyük bir qismi artan daxili istehlakın mənfəətini götürmək məqsədi güdürdü. Buna görə də istehsal olunan məhsulların 90-95 faizi, sadəcə olaraq, daxili istehlaka söykənmişdi. Burada monopoliyanın, daha asan gəlir götürmənin, bazar prinsiplərinin normal inkişaf etməməsinin, ixracın ölkə üçün əhəmiyyətinin aşağı səviyyəli qiymətləndirilməsinin təsiri var idi. Ölkədə ixracı məhdudlaşdıran, maneələr yaranmasına səbəb olan ciddi idarəetmə nöqsanları ortaya çıxdı. Gömrük idarəetməsində ixracla bağlı kifayət qədər maneələr formalaşdı. Məsələn, Azərbaycan şərabları vaxtilə tanınırdı. Ancaq sonrakı dövrdə biz MDB daxilində belə Gürcüstanla rəqabət apara bilmədik. Bunun da səbəbi hədəf olaraq daxili istehlakçıya yönəlmiş qeyri-təbii bazar şərtlərində ticarəti həyata keçirən şirkətlərin dünya bazarında rəqabət apara biləcək səviyyədə mal istehsal etməməsi idi. Düşünürəm ki, ölkədə qeyri-neft sektorunun inkişafına zərurət yarandığından müəyyən islahatların aparılması ehtimalı böyükdür".

**Ekspert hökumət real dəstək verərsə, yaxın 10 ildə Azərbaycan brendinin dünyada tanınmasının mümkün ola biləcəyini dedi:** "Atılan addımlar qanun üzərində deyil, reallıqda həyata keçirsə, növbəti dövrlərdə Azərbaycan brendinin formalaşmasını təmin etmək olar. Azərbaycan narının Avropada kifayət qədər böyük bazarı var. Hansısa problemlər olmasa, Avropa bazarında bu məhsulun çox böyük əhatə dairəsinə malik olan brendinin formalaşmasını təmin etmək olar. Yaxud Azərbaycanda istehsal olunan fındıq məhsulları Avropa ölkəsinə əksər hallarda Türkiyə brendləri adı altında çıxarılır. Azərbaycan brendinin olmaması, adi qablaşdırmanın, etiketləşdirmənin, primitiv məsələlərin Avropa standartlarına uyğun olmaması, bundan başqa Avropa bazarlarına giriş üçün lazım olan sənədləşdirmələrin, sertifikatların əldə edilmə imkanlarının məhdudluğu istehsalçıları məcbur edir ki, bir çox hallarda bu məhsulları Türkiyə markaları adı altında dünya bazarlarına çıxarsınlar. Bu isə o deməkdir ki, məhsullar Azərbaycandan Türkiyəyə xammal şəklində daxil olur. Türkiyədən isə son istehlak məhsulu şəklində Avropaya idxal olunur. Yəni Azərbaycanın Avropaya birbaşa çıxışı olmadığı üçün öz məhsullarını daha aşağı qiymətə türk biznesinə satması məcburiyyəti ortaya çıxır. Hökumət bu istiqamətlərdə həqiqi islahatlar apararaq real dəstək versə, növbəti 10 ildə Azərbaycan brendinin dünya bazarlarında formalaşmasına müəyyən şərait yaranmış olar".

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



## Elan

**Təcili Hacıqabulda hər bir şəraiti olan- daimi suyu, işıgı, 3 yaşayış evi, böyük tövlələri, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**

**Sənədlər qaydasindadır. Qiyməti 150.000 $.**

**Əlaqə nömrəsi : 050-214-40-53**

***

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**

**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**


## İndi meqabaytlar bitsə də, internet kəsilmir!

"Nar" yenilənmiş və daha sərfəli internet paketlərini təqdim edir

**"Nar" abunəçiləri gücləndirilmiş və yenilənmiş şəbəkədən yararlanaraq, sərfəli qiymətlərlə daha çox çeşidli internet paketlərindən istifadə edə biləcəklər. Abunəçilərin rahatlığını düşünən "Nar" yenilənmiş və yüksəksürətli Turbo paketlərini limitsiz etdi. İndi, paket bitdikdən sonra belə abunəçilər trafikin istifadə müddəti bitənə qədər pulsuz olaraq internetdən istifadə edə biləcəklər (paket daxilində trafik sərf olunduqda, sürət saniyədə maksimum 64 Kb-ə çata bilər).**

Gəlin birlikdə böyüyək

**Əlavə olaraq, "Nar" abunəçiləri Turbo XL, Turbo 2XL və Turbo 3XL paketlərində gündüz (pik saatlar) trafiki bitənə qədər pulsuz olaraq maksimum sürətlə məhdudiyyətsiz gecə (qeyri-pik saatlar) trafikindən yararlana bilərlər.**

**Abunəçilərə təqdim olunan digər yenilik "Nar" 3G+ və 4G dəstləri oldu. Abunəçilər sadəcə 20 AZN ödəməklə "Nar" data-nömrə, 3G+ modemi və 15 GB trafik, böyük həcmli internetə üstünlük verənlər isə 49 AZN ödəməklə "Nar" data-nömrə və 4G modemlə yanaşı, 30 GB-lıq internet trafiki əldə etmiş olacaqlar. Pulsuz və məhdudiyyətsiz gecə trafiki "Nar" 3G+ və 4G dəstlərinə də şamil olunur.**

**Abunəçilər həmçinin "eNəzarət" xidməti vasitəsi ilə balanslarını asanlıqla yoxlaya və idarə edə biləcəklər. Bu xidmət hər hansı bir internet səhifəsinə daxil olduqda, istifadə edilən cihazın ekranında ortaya çıxaraq, abunəçiyə balansındakı məbləğə və internet trafikinə nəzər yetirmək, balansı artırmaq, eləcə də internet paketini aktivləşdirmək imkanı verir.**

**"Nar"ın genişləndirilmiş, mobil şəbəkəsi sayəsində bütün ölkə boyunca 4G və 3G texnologiyalarına əsaslanan mobil internet xidməti abunəçilərə hər yerdə və hər zaman yüksəksürətli internetdən daha sərfəli və rəqabətədavamlı qiymətlərlə istifadə imkanını yaratdı.**

**Yenilənmiş internet paketləri haqqında məlumatı buradan ala bilərsiniz: nar.az**

YENİ MÜSAVAT
N 49 (6370) 2 mart 2016




# Mərkəzi Bank bankları birləşdirə bilmədi-səbəb...

## Qadir İbrahimli: "Əmanətlərin Sığortalanması Fondunun büdcəsi boşalıb"

**Bu ilin əvvəlində bankların bağlanması müşahidə edilsə də, bir qədər sonra birləşmə qərarı ortaya atıldı. Bir neçə bank birləşmə barədə niyyət protokolu imzalasa da, proses nəticəsiz qaldı. Heç bir bank birləşmədi. Halbuki Mərkəzi Bank onlara bir ay vaxt vermişdi. Bugünlərdə isə Mərkəzi Bankın sədri Elman Rüstəmov bildirib ki, bankların birləşməsi başa çatıb: "Bircə "AGBank"la bağlı məsələ qalıb. Onlar da öz əmanətçilərinin hesabına kapitalını artırır".**

Ekspertlər baş bankirin fikrilərinin doğru olmadığını bildiriblər. Bildirilir ki, ölkədə son illər ərzində heç bir bank nə konsolidasiya olub, nə də ki, birləşdirilib. Ekspertlərin fikrincə, niyyət protokolları birləşmə üçün heç bir hüquqi və qanuni əhəmiyyət daşımır. Birləşmə prosesinin başlanması üçün rəsmi şəkildə həmin bankların səhmdarlarının ümumi yığıncağı toplanmalıdır. Hər ikisinin, yaxud birləşmək istəyən neçə bankdırsa hamısının səhm sahibləri bir araya gəlməlidirlər. Həmin yığıncaqda qərar verilməlidir ki, hansı banklarda birləşmə baş verəcək. Sonradan isə bu qərar rəsmi şəkildə mətbuatda elan formasında dərc edilməlidir.

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, ölkədə bankların birləşməsi baş tutmayıb: "Elman Rüstəmov dedi ki, konsolidasiya bitdi. Halbuki konsolidasiya birləşmə deməkdir və birləşən olmadı. Başlamayan proses təbii ki, bitə bilməzdi. Sadəcə, Rüstəmov məsələni bu cür qapatdı. Birləşmə banklarin öz içindən gəlməlidir, yuxarıdan tapşırıq olmamalıdır. Elə buna görə də baş tutmadı. Bank nəzarəti səlahiyyəti yaxında Maliyyə Bazarlarına Nəzarət Palatasına keçəcək, ona görə də Rüstəmovun göstərişi ilə artıq hesablaşan yoxdur".

**Ekspert Qadir İbrahimli isə qeyd edib ki, Azərbaycanda bankların birləşməsi nümunəsi yoxdur:** "Bizdə belə praktika olmayıb. Banklar korporativ idarəetməyə o qədər də meylli deyil. İkinci tərəfdən, kifayət qədər bank bağlandı, ləğv olundu. Mərkəzi Bank belə sürətlə bank sektorunun çökməsində maraqlı deyil. Bank sektoruna cəmiyyətdə böyük etimadsızlıq yaranıb. Bu baxımdan da Mərkəzi Bank bir müddət bu prosesi ləngitmək istəyir. Azərbaycanın bank sektorunun həm də yeniləşməsinə, müasirləşməsinə ehtiyac var. Çünki indiyə kimi bankların çoxu istehlak kreditlərindən deyil, əhalinin əmanətləri üzrə formalaşmışdı. Müasir bank xidmətləri göstərmək gücündə olan banklar deyildilər. Sadəcə olaraq, əhalidən depozit, əmanət və kredit hesabına gəlir əldə edirdilər. Bir çox banklar da neft pulları çox olduğu dövrdə buna nail ola bildilər. İndi bazarda rəqabət dövrü yaranıb. Bank sektorunda ciddi rəqabət mühiti var, buna bir neçə bank dözmədi və sıradan çıxdı. Bank sektorunda böyük təlatümlər yaşandı. İnsanlar artıq banka qoyduğu əmanətləri geri ala bilmirlər. Əmanətlərin Sığortalanması Fondu bəlli həddə və bəlli məbləğdə əmanətlərin qaytarılmasına təminat verirdi. Hazırda bununla bağlı ciddi problem var. Belə bir şəraitdə Mərkəzi Bank prosesi əngəllədi. Müvəqqəti də olsa dondurdu ki, proses daha dərinə getməsin. Əmanətlərin Sığortalanması Fondunun büdcəsi də boşalıb, fondda çox ciddi problemlər ortaya çıxıb. Ona görə Mərkəzi Bank bu prosesi dondurmaq və növbəti mərhələyə qədər ləngitmək qərarına gəlib".

❑ Röya RƏFİYEVA

# Açılan iş yerlərinin sayı açıqlanmır

## Ekspertlər hesab edirlər ki, əslində ortada real heç nə yoxdur

**Ölkədə birinci devalvasiyadan sonra müxtəlif sahələrdə ixtisarların anonsu səslənsə də, ikinci devalvasiyadan sonra yeni iş yerləri barədə elanlar verilir. Müxtəlif təşkilat və qurumlar bir-birinin ardınca vakansiyalar elan edir, iş yerləri barədə təkliflər verirlər. Aradan keçən iki ay müddətində açılan iş yerlərinin sayı isə açıqlanmır. Ekspertlər bunu blef, yaxud əhalinin qəzəbini yatırmaq üçün verilən yalan məlumat hesab edirlər.**




**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, hökumətin iş yerləri barədə elanları reklam aksiyasından uzağa getməyib: "Çünki ciddi şəkildə iş yerlərinin açılması barədə heç bir məlumat yoxdur. Bundan başqa, bəzi şirkətlər və yaxud da dövlət idarələri maaş fondunu bölərək, yəni maaşları bir az azaldaraq bir- iki əlavə ştat yaradıb. Yəni mərkəzləşdirilmiş şəkildə gəlmiş əmrə tabe olaraq müəyyən iş yerləri yaratmaq cəhdləri oldu. Bunun dayanıqlığı, iqtisadi əsası olmadığı üçün inzibati yollarla iş yerlərinin yaradılması heç bir effekt verməməli idi. Vermir də. Çünki bunun bir iqtisadi əsası, əsaslandırması olmalıdır. Ən azından, yeni layihələr olmalıdır. Amma dövlət büdcəsinə edilmiş yeni dəyişikliklərdən sonra ola bilsin, bu barədə müəyyən işlər getsin. Çünki yeni layihəyə görə 2 milyarda yaxın xərcləmələr nəzərdə tutulur. Burada yenə də dayanıqsız və müvəqqəti iş yerlərinin açılmasına üstünlük veriləcək. Əsasən də təmir-tikinti sahəsində aparılan işlər olacaq. Bu da problemin həlli, çözümü deyil. Çözüm dayanıqlı və iqtisadi əsasları olan, istehsalla məşğul olan iş yerlərinin yaradılmasıdır ki, bu zaman həmin iş yerləri daha dayanıqlı olur və uzunmüddətli olur. İndiki halda isə iş yerlərinin dayanıqsız olması və müvəqqəti xarakter alması bir müddət sonra həmin problemi yenidən gündəmə gətirəcək. Ona görə də verilən anonslar reklam xarakterli, blef xarakterli bir aksiyalar idi. Çünki SOCAR da elan etmişdi ki, az qala 9 min iş yeri yaradılacaq. Hələ bununla bağlı heç bir açıqlama yoxdur. Ciddi irəliləyiş yoxdur. Şirkətlər də elan etmişdilər. Ancaq bir yerə yüzlərlə insan müraciət edirsə, yaxud əmək yarmarkaları keçirilən zaman minlərlə insan oraya axın edirsə, deməli, işsizlik problemi hələ ən aktual problem olaraq qalır".

**Ekspert Qadir İbrahimli isə qeyd edib ki, sözügedən elanlarda olan iş yerləri imitasiya xarakterlidir:** "Çünki hökumət dövlət müəssisələrində ixtisarların qarşısını almaq istəyirdi. Çalışırdı ki, sosial mühit daha da gərginləşməsin. Ancaq tutaq ki, SOCAR-da Əmək Nazirliyi ilə müqavilə əsasında həmin iş yerləri elan edilib. Tapşırılıb ki, əhali az gəlirli, az maaşlı işlə müvəqqəti olaraq təmin edilsin. İş yerlərinə qəbul edilən insanlarla xidməti müqavilə bağlanıb. Bir ildən sonra onlar yenidən işsizlər ordusuna qayıdacaqlar. Yəni bu, hökumətin müəyyən imitasiya xarakterli addımı idi. Göstərmək istəyirdi ki, işsizlik probleminin həllində maraqlıdır. Ancaq bu ciddi bir iş deyildi. Bu iş yerlərində gəlirlər də çox nominaldır, insanın dolanışığına kifayət edən şərtlər deyil. Hökumət ixtisarların qarşısını ala bilmirdi, vəziyyət ciddiləşdiyindən bu addımı atdı. Düşünürəm ki, ixtisarlar davam edəcək. Azı bu ilin sonuna qədər prosesi müşahidə edə biləcəyik".

Qeyd edək ki, ekspertlər iş yerlərinin yaradılması üçün heç bir iqtisadi əsas olmadığını vurğulayırlar. Bildirilir ki, əslində iqtisadi böhran kəskin həddədir, iş yerləri kütləvi şəkildə qapadılır, dövlət qurumları ciddi ixtisarlara gedir. Yeni iş yerləri anonsu isə ölkədəki ajiotajı aradan qaldırmaq üçündür.

❑ RÖYA

# "Salyan OIL" əməliyyat şirkəti maaşları artırdı

**Bu barədə virtualaz.org saytının Şirvan bürosuna şirkətin fəhlələri məlumat veriblər.**




Artıq fevral ayının ödənişlərindən başlayaraq əmək haqqı 10 faiz artırılıb. Bundan başqa, işsizliyin aradan qaldırılmasına kömək məqsədilə əlavə 100 nəfər yeni fəhlə müddətli müqavilə ilə işə götürülüb. Hazırda müəssisədə 900 nəfərə yaxın işçi çalışır, sutkalıq neft hasilatı isə 600-700 tondur.

Ötən ilin dekabr ayının 25-də"Salyan OİL" əməliyyat şirkətinin 300-ə yaxın fəhləsi şirkətin Kərimbəyli kəndindəki ofisinin qarşısına toplaşaraq xəbərdarlıq aksiyası keçirmişdilər.

Aksiya iştirakçılarının virtualaz.org saytının Şirvan bürosuna o zaman verdikləri məlumata görə, iki ay idi ki, "Salyan OİL" şirkətinin çinli baş meneceri Shan Lianzhengin əmri ilə şirkətdə işləyən fəhlələrin əmək haqqı qənaət adı ilə 33 faiz kəsilmişdi.

"Bu isə bütün neft əməliyyat şirkətləri arasında onsuz da daha az əmək haqqı alan "Salyan OİL" neftçilərinin məvacibini minimuma endirib. İş hətta o yerə çatıb ki, ağır əmək şəraitində çalışan neftçilərin bəzilərinin aylıq əmək haqqı 300-400 manata düşüb", - deyə aksiyaçılar virtualaz.org saytına bildirirdilər.

Aksiyadan sonra etirazçı neftçiləri "Salyan OİL" əməliyyat şirkətinin baş meneceri Shan Lianzheng qəbul etmişdi. O söz vermişdi ki, problem müzakirə edilərək qərar qəbul olunacaq.

Qeyd edək ki, Azərbaycanın quru ərazisinin Kür çökəkliyində yerləşən "Kürsəngi" və "Qarabağlı" neft yataqları müvafiq olaraq 1960 və 1962-ci illərdən istismar edilməyə başlanıb.

YENİ MÜSAVAT
Son səhifə
N 49 (6370) 2 mart 2016



## İki bacı onlara söz atan kişini kəmərlə döydü

Hindistanın Roxtaq şəhərində iki bacı aqressiv bir kişinin hücumundan kəmər yardımı ilə qurtulub. İnsident avtobusda, bacılar kollec binasından çıxanda baş verib. Onlar qızları təhqir edir, toxunur və heç də xoş olmayan şərhlər verirdilər. Bacılar avtobusa minəndə kişilər də onların dalınca düşüb. Onlar qızlara içində telefon nömrələri olan kağız tullayıblar. Bundan sonra 22 yaşlı Arati qışqırıb. Bundan "həvəslənən" kişilərdən biri onun əlini tutub, digəri isə o biri bacının boynundan yapışıb. Təcavüzkar kişilərin hücumundan qorunmaq üçün kiçik bacı belindən kəməri çıxararaq kişini döyməyə başlayıb. Hadisəyə müdaxilə edən yeganə şəxs isə hamilə bir qadın olub. Böyük bacı isə deyib ki, sərnişinlər ona "qarşı çıxmaq lazım deyil, əks halda, sizə təcavüz edəcək və ya üstünüzə sirkə turşusu atacaqlar" məsləhətini verirmişlər.




## Xərçəng olduğunu öyrəndi, səyahətə çıxdı

Amerikada yaşayan 90 yaşlı Norma adlı qadın dünyanı şoka salan bir addım atıb. Ötən ilin iyulunda 67 illik həyat yoldaşını itirən qadın bir ay sonra xərçəng xəstəliyinə tutulduğunu öyrənib. Həkimlər ona əməliyyat və ya kemoterapiya məsləhət görsələr də, qadın bununla razılaşmayıb. "Onsuz da yolun sonundayam, ikisini də qəbul etmirəm" deyən Norma fərqli qərar verib. O, Amerika boyu səyahət edən oğlu Ramie və qızına qoşulub. Avqust ayından etibarən tura başlayan Norma gəzdiyi yerləri və daddığı yeməkləri facebookdakı "Norma xanımla səfər" (Driving Miss Norma) səhifəsində paylaşaraq minlərlə insanı motivasiya edib.

# Diş fırçası uddu

İngiltərənin Şərqi Sussex bölgəsində yaşayan 19 yaşlı Corc Smit dişlərindən sonra dilini fırçalayanda diş fırçasını udub. Gənc qız diş fırçasını udanda öncə öləcəyini zənn edib. Amma nəfəs aldığını fərq edib və anlayıb ki, fırça boğazında bir yerdə sıxışıb qalmayıb. Xəstəxanaya gedən Smit rentgen aparatından keçib. Amma rentgen çəkilişlərində qadının mədəsində və ya boğazında fırça tapılmayıb. Qadın inanır ki, diş fırçası bağırsağındadır və təbii yollarla çıxacaq. Həkimlər də hesab edir ki, heç bir yerdə "tapılmayan" fırça mütləq təbii yollarla bağırsaqdan çıxmalıdır.



# Ata ilə oğul evlərinin arasına yerüstü keçid tikdirdilər

Türkiyənin Karadeniz bölgəsində tez-tez rast gəlinən və mətbuatda istehza ilə "inşaat xarüqəsi" adlandırılan evlər arasında yerüstü keçidlərdən biri də Adanada ortaya çıxıb. Türkiyənin "Sabah" qəzeti xəbər verir ki, Adanada çayxana işlədən 51 yaşlı Necmettin Afşin 21 yaşlı oğlu Orhan Afşini evləndirəndən sonra qərar verib ki, oğlu ilə gediş-gəlişi soyutmasın. Afşin aşağı mərtəbəsi çayxana olan 2 mərtəbəli evinin yerləşdiyi küçənin o biri üzündə də oğlu üçün iki mərtəbəli ev tikdirib. Ata ilə oğulun evini isə ortadan keçən küçə ayırırdı. Tez-tez bir-birinin evinə gedib-gələn ailələr pilləkənləri qalxıb-düşmə əziyyətindən qurtulmaq üçün belə bir çarə düşünüblər. Ata 1500 manata yaxın xərc çəkərək evlərin arasında yerüstü keçib düzəltdirib. İndi ailə üzvləri daha rahat bir şəkildə bir-birinin evinə gedib gələ bilir. Ailə başçısı yerli mediaya deyib ki, bu ideyanı heç kimdən oğurlamayıb, özü düşünüb və həyata keçirib.






## Marixuana çəkmək xərçəngə səbəb olur

ABŞ-ın Kaliforniya Universitetindən olan mütəxəssislər bu haqda "Cancer" jurnalında məlumat veriblər. Belə ki, onlar marixuana çəkməklə müalicəyə tabe olmayan yumurtalıq xərçəngi arasında sıx əlaqənin olduğunu müşahidə ediblər. Kanserogen effekt nəinki davamlı istifadə zamanı, həmçinin maraq naminə bir və ya bir neçə dəfə dadına baxarkən də formalaşır.15-45 yaş arası əhali arasında daha intensiv şəkildə yayılan xəstəlik nəticə etibarilə müalicəyə çətin tabe olan və ümumiyyətlə olmayan şəkildə keçirilir və pis mühitin nəticəsidir. 192 xəstə və 292 sağlam xəstəni sorğudan keçirən mütəxəssislər belə nəticəyə gəlmişlər ki, marixuanadan istifadə prosesi iki dəfəyə qədər sürətləndirir.




**QOÇ** - Ümumi gedişat maraqlı bir təqvim yaşayacağınızı bəyan edir. Hər şeyə yenidən başlayın. Əgər üç dəfədən çox cəhd etdiyiniz işlər boşa çıxırsa, onlardan imtina edin. Səfərə çıxa bilərsiniz.

**BUĞA** - Boş dayanmağa lüzum yoxdur. Hər fürsətdən yararlanın: istirahət və əyləncələri arxa plana salın. Ola bilsin ki, axşama doğru sevincinizi artıran fəaliyyət sürprizləri yaşayasınız.

**ƏKİZLƏR** - Maraqlı insanlarla rastlaşacağınızdan xəbər verən Göy qübbəsi bu təqvimdən razı qalacağınızı bəyan edir. Əgər daxili orqanlarınızı qoruya bilsəniz, hər hansı fəsad olmayacaq.

**XƏRÇƏNG** - Qarşınızda unikal bir tarix dayanıb. Demək olar ki, bütün proseslərdən mənfəət götürəcəksiniz, əlbəttə əgər bütün planlarınız ədalət prinsiplərinə söykənərsə. Dilinizi duasız etməyin.

**ŞİR** - İmkan daxilində çalışın ki, təşəbbüskarlıq başqalarında olsun. Çünki bu gün istənilən riskiniz iflasa uğraya bilər. Daxili gücünüzü ənənəvi vəzifələrinizin icrasına yönəldin.

**QIZ** - Ağlınız kəsməyən və ya keçmişi qaranlıq olan istənilən şəxslə işbirliyi qurmaqdan çəkinin, ağır fəsadları ola bilər. Əgər planınızda olsa, uzaq səfərə çıxın ki, daxili rahatlığınız bərpa olunsun.

**TƏRƏZİ** - Kosmik fon uğursuz olduğu üçün bir çox məsələlərə ehtiyatla yanaşmalısınız. Maliyyə sahəsində isə bütün növ planlarınızı dondurmağınız məsləhətdir. Yalandan keçən işlərdən yayının.

**ƏQRƏB** - Səhər saatlarında müəyyən problemlərdən keçəcəksiniz. Təmkininizi qorumaqla bu gərginliyi minimal itki ilə başa vura bilərsiniz. Günün qalan vaxtı müsbət çalarlı olacaq.

**OXATAN** - Təxminən saat 15-ə qədər nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Hansısa problemin yaranacağını düşünməyin. Sonrakı müddətdə isə diqqətli olmalısınız.

**OĞLAQ** - Astronomik quruluşun o qədər də qənaətbəxş olmaması köhnə münaqişələri təzələməyinizin qorxulu olacağını göstərir. Bu səbəbdən bütün gücünüzlə neytrallığınızı qorumalısınız.

**SUTÖKƏN** - Düşərli bir gün yaşayacaqsınız. Ailə üzvlərinizlə, gündəlik ünsiyyətdə olduğunuz insanlarla mülayim davranın ki, bu hal davamlı olsun. Şəxsi büdcənizi bərk-bərk qoruyun.

**BALIQLAR** - Ötən günlərin gərginliyindən əsər-əlamət qalmayacaq. Üstəlik, gələcək həyatınızda önəmli rol oynaya biləcək şəxslərlə rastlaşmaq ehtimalınız da var. Müqəddəs məkanlara mütləq baş çəkin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Arıqlamaq istədi, bir stəkan su içdi... və öldü

Türkiyənin Dənizli şəhərində mədəsini kiçildən 34 yaşlı Sərdar Çəlik 2 ay sonra dünyasını dəyişib. Ötən ilin iyul ayında ailə həyatı quran Sərdarın çəkisi 147 kiloya qədər artıb. Arıqlamaq üçün tibdə "sleeve gastrektomi" adı ilə tanınan, el dilində isə mədə kiçiltmə əməliyyatına girməyə qərar verib. Həyat yoldaşı da özü kimi kök olduğu üçün cütlük ötən ilin 21 dekabrında birgə əməliyyata girib. Xəstəxanadan buraxılandan sonra evinə qayıdan S.Çelik üç gün sonra bir stəkan su içib və vəziyyəti pisləşib. Dərhal xəstəxanaya aparılan Çeliyin mədəsinə atılan tikişlər partlayıb. 55 gün reanimasiyada qaldıqdan sonra isə dünyasını dəyişib.



Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300